QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 035 (5755) **21 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir"



*Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib*

Səh 2

"Cənub Qaz Dəhlizi dayanıqlı layihədir"



5

Nazirlər Kabinetində keçirilən görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafından danışılıb



4

Siyavuş Novruzov: "Məhbusların azadlığa çıxmasını istəməyənlər "Milli Şura"da toplaşanlar və xaricdə özünü müxalifət adlandıranlardır"



6

"10 mindən artıq vətəndaşımız Fərmandan yararlanmaq imkanı qazanacaq"



7

Sənədsiz bina qalmayacaq



7

Azərbaycanda tələbə-gənclərə böyük diqqət var



8

14

Əli Kərimli narahatdır - siyasi ekstaza və mitinq transına düşüb



13

Erməni deqradasiyası



12

Seçkilərdən sonra Ermənistana xarici investisiya niyə cəlb olunmur?



səs

www.sesqazeti.az
facebook Ses Media Holding

21 fevral 2019-cu il

# İlham Əliyev: “Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir”

*Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib*




***Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.***

*“Enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq”*

Tədbirdə Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söyləyib. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, Cənub Qaz Dəhlizi ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir:

“Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsidir. O zaman Azərbaycan nəhəng “Azəri-Çıraq-Günəşli” neft yatağı ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu, bizim beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığımızın başlanğıcı idi. O vaxt Azərbaycan öz təbii resurslarını beynəlxalq əməkdaşlıq üçün əlçatan etdi. İlk dəfə beynəlxalq sərmayələr Xəzər dənizinə yatırıldı və 1994-cü il, əslində, Azərbaycanın inkişafı baxımından da dönüş nöqtəsi oldu. Azərbaycan o zaman yalnız üç il idi ki, gənc müstəqil dövlət idi və iqtisadi vəziyyət çox çətin idi. Ölkəni xarici sərmayə üçün açaraq biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik. Bunun nəticəsində neftdən gələn gəlirləri iqtisadiyyatın şaxələndirilməsi və müasir infrastrukturun yaradılmasına yönəltdik. Bu gün isə biz artıq qeyri-neft sektorunun inkişafına diqqət yetiririk. Bu, bizim üçün prioritetdir. Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaq.






1996-cı ildə “Şahdəniz” qaz yatağı ilə bağlı müqavilə imzalanmışdır ki, həmin yataq Cənub Qaz Dəhlizinin əsas resurs mənbəyidir. Ümidvaram ki, bu, yeganə mənbə olmayacaq, ancaq hazırda bu, belədir. Bu, nəhəng bir qaz yatağıdır və onun təbii ehtiyatları artıq hasil və ixrac olunur.

Bizim enerji sahəsinin xronologiyasına nəzər salsaq görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi. Bu baxımdan 1990-cı illərin sonunda Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi baxımından vacib məsələ idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bu nəhəng layihə sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdi. Biz isə ixracımızı mümkün qədər artırdıq və bu gün Bakı-Tbilisi-Ceyhan vasitəsilə digər ölkələrə də neft nəql edilir.”

Dövlət başçımız qeyd edib ki, Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və əlbəttə ki, Azərbaycanın regiondakı rolu artmaqdadır. Prezident qeyd edib ki, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışı olub və ilk dəfə olaraq Azərbaycan beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrilib:

**Ardı Səh. 3**

# İlham Əliyev: "Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir"

## *Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib*




### *"Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır. Bunun yarısı xarici investisiyalardır"*

**Əvvəli-Səh-2**

"Çünki o vaxta qədər biz təbii qazı idxal edirdik. Yəni, biz əsas enerji layihəsi olan Cənub Qaz Dəhlizi istiqamətində davamlı olaraq irəliləmişik və bu gün bu layihənin icrası artıq reallıqdır. Xatırlayıram ki, 2012-ci ildə Azərbaycan və Türkiyə TANAP layihəsi ilə bağlı müqavilə imzaladı və bu, Cənub Qaz Dəhlizinin başlanğıc nöqtəsi idi. Bir il sonra, 2013-cü ildə "Şahdəniz-2" layihəsi üzrə sərmayə qərarı qəbul edildi və elə həmin ildə Trans-Adriatik boru kəməri TANAP-ın davamı olaraq seçildi. Bütün bunlar onu nümayiş etdirir ki, biz tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Biz vahid komanda şəklində çalışmağımız nəticəsində uğurdan bəhs edə bilərik.

Ötən ilin fevral ayındakı sonuncu görüşümüzdən sonra iki mühüm tədbir keçirildi - biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında Cənub Qaz Dəhlizinin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar "Şahdəniz" yatağının istismarı və Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun dörd elementindən üçü artıq hazırdır və istifadə olunur. TANAP layihəsinin istifadəyə verilməsindən sonra 1 milyard kubmetr qazın Türkiyə bazarına ixracı bizi məmnun edir.

Trans-Adriatik boru kəmərinin inşasında da böyük irəliləyiş var. Ötən ilin fevral ayında şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yəni, bir ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq.

Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik - yəni, istehsalçı olan Azərbaycan və istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, eyni zamanda, gələcək addımlarımızı planlaşdırır və işimizin irəlilədilməsi məqsədilə il ərzində isə ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk. Bir daha qeyd edirəm ki, Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Çünki o, həmçinin nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir. Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə biz enerji marşrutlarını şaxələndiririk. Yəni, bu, tam şaxələndirmədir, əslində, bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, Cənub Qaz Dəhlizinin əhəmiyyəti artır.

Əlbəttə ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi layihəsidir. Biz yaxşı anlayırıq ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq. Onlar özlərinin gələcəyini və sənaye inkişafını planlaşdırmalıdır. Eyni zamanda, təbii sərvətlərlə zəngin olan istehsalçı dövlətlər etibarlı bazarlar olmadan öz məqsədlərinə çata bilməzlər. Beləliklə, bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir.

Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə ki, "Şahdəniz" Azərbaycanın əsas qaz yatağıdır. Lakin, eyni zamanda, hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz "Abşeron" yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq. Böyük qaz ehtiyatına malik "Ümid", "Babək" yataqları və digər yataqlar da çox ümidvericidir. Ona görə də mən əminəm ki, "Şahdəniz" Cənub Qaz Dəhlizi üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaq.

Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır. Bunun yarısı xarici investisiyalardır. Bu, bizə iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu "Doing Business" hesabatına əsasən Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biriyik. Enerji resursları və gəlirlərindən düzgün istifadə sayəsində biz infrastruktura, sosial infrastruktura böyük həcmdə investisiya yatırmağa, əhalinin yaşayış səviyyəsini qaldırmağa nail olmuşuq. Ona görə də bu layihə bizim üçün, əminəm ki, hamımız üçün olduqca mühüm əhəmiyyət kəsb edir."

X X X

Azərbaycanın energetika naziri Pərviz Şahbazov budəfəki toplantıda da mühüm məsələlərin müzakirə olunacağını deyərək sözü Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerə verdi.

Avropa Komissiyasının komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger çıxış edərək bildirdi ki, Avropa İttifaqı strateji əhəmiyyətə malik Cənub Qaz Dəhlizi layihəsinin yaxın zamanlarda tamamlanması üçün üzv dövlətlərlə sıx əməkdaşlıq edir. Bu layihənin Avropa İttifaqının enerji təhlükəsizliyini xeyli gücləndirəcəyini deyən Günter Ottinger Prezident İlham Əliyevə bu toplantılara dəstək verdiyinə görə təşəkkür etdi və Məşvərət Şurasının iclaslarının layihənin reallaşmasında mühüm rol oynadığını bildirdi. "Bu gün Azərbaycan güclü artım tempinə malik ölkədir və iqtisadi çağırışlarını inamla həll edir", - deyən Avropa İttifaqının rəsmisi əlverişli geosiyasi mövqeyə malik Azərbaycanın enerjini hasil və ixrac edən mühüm ölkə olduğunu və Avropa İttifaqının Azərbaycanın zəngin enerji təcrübəsindən faydalandığını vurğuladı. "Avropa İttifaqı üçün Azərbaycan Mərkəzi Asiya və Çinə çıxış yoludur", - deyən komissar Azərbaycanın enerji şaxələndirilməsi planlarına da Avropa İttifaqının öz dəstəyini ifadə etdiyini bildirdi.

X X X

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı işini plenar sessiya ilə davam etdirdi.

Sessiyada Azərbaycanın energetika naziri Pərviz Şahbazov, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi, ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk, Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, Türkmənistan Prezidentinin müşaviri Yaxşıgəldi Kakayev, Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, TANAP-ın baş direktoru Saltuk Düzyol və TAP-ın icraçı direktoru Luka Şipati çıxış etdilər.

Sonra Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi və "Şahdəniz-2" layihəsinə həsr olunan videoçarx nümayiş olundu.

Daha sonra Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşünün iştirakçıları tərəfindən Birgə Bəyannamə qəbul edildi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Bakı şəhərinin Binəqədi rayonunda İrəvan Dövlət Azərbaycan Dram Teatrı binasının əsaslı təmiri və yenidən qurulması işləri haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyul tarixli 739 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 185 nömrəli, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 24 dekabr tarixli 232 nömrəli, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 8 fevral tarixli 277 nömrəli və "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 17 iyun tarixli 353 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# "Avropa İttifaqı ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlıq genişlənir"

*Prezident İlham Əliyev Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı ilə görüşüb*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Cənub Qaz Dəhlizinin uğurlu icrasından məmnunluq ifadə edildi, bu baxımdan Məşvərət Şurasının toplantılarının önəmi vurğulandı. Prezident İlham Əliyev bu layihənin icrasında Avropa İttifaqının fəal iştirakını və rolunu qeyd etdi, Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirildiyini bildirdi.

Günter Ottinger Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında iştirak etməkdən məmnunluğunu bildirdi, layihənin icrasında Azərbaycan tərəfindən peşəkar komandanın fəal çalışdığını vurğuladı. Qonaq bu layihənin uğurlu icrasında Azərbaycanın etibarlı tərəfdaş olduğunu bildirdi.

Dövlətimizin başçısı Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının prezidentinə çatdırmağı xahiş etdi. Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında digər sahələrdə də uğurla həyata keçirilən əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# "Türkiyə-Azərbaycan əməkdaşlığı bütün sahələrdə böyük nəticələrə gətirib çıxarıb"

*Prezident İlham Əliyevin Türkiyənin energetika və təbii sərvətlər naziri ilə görüşü olub*



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Fatih Dönməz görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Cənub Qaz Dəhlizinin əhəmiyyətini xüsusi qeyd edən Fatih Dönməz Türkiyənin bu layihənin ilk mərhələsindən Azərbaycanın yanında olduğunu vurğuladı. O, Cənub Qaz Dəhlizi layihəsinin icrasının uğurla davam etdirildiyini bildirdi. İndiyədək TANAP layihəsinin və STAR neft emalı zavodunun açıldığını xatırladan Fatih Dönməz belə layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev Türkiyənin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında yüksək səviyyədə iştirakına görə minnətdarlığını bildirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə imzalanan bu layihənin təməlinin TANAP ilə qoyulduğunu vurğulayan dövlətimizin başçısı onun tarixi əhəmiyyətini qeyd etdi, TANAP-ın rəsmi açılışını xatırlatdı. Dövlətimizin başçısı Türkiyə ilə birlikdə bu layihənin qısa müddətdə başa çatdırılmasının böyük nailiyyət olduğunu vurğuladı.

Türkiyə-Azərbaycan əməkdaşlığının bütün sahələrdə, o cümlədən enerji sahəsində də böyük nəticələrə gətirib çıxardığını qeyd edən Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, indiyədək 1 milyard kubmetr qaz yeni xətt vasitəsilə Türkiyəyə çatdırılıb. STAR neft emalı zavodunun fəaliyyətə başlamasının önəmini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bir neçə milyard dollarlıq sərmayə bu gün artıq nəticə verir.

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi layihəsinin başa çatdırılması üzrə işlərin uğurla davam etdirildiyini söylədi. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında layihənin uğurlu icrası ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı. Dövlətimizin başçısı ötən il bir neçə mühüm layihənin icrasının başa çatdırıldığını qeyd edərək, bugünkü toplantıda yeni tərəflərin də təmsil olunduqlarını vurğuladı. Bildirdi ki, bu, layihəyə artan marağın göstəricisidir. Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın Cənub Qaz Dəhlizi layihəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk 2018-ci ildə layihənin uğurlu icrası istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu dedi. O, ötən il bu layihə çərçivəsində yeni xətlə Türkiyəyə ilk dəfə olaraq 1 milyard kubmetr qazın çatdırıldığını vurğuladı. Görüşdə bərpaolunan və alternativ enerji, eləcə də digər sahələrdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

## Nazirlər Kabinetində keçirilən görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafından danışılıb



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov fevralın 20-də Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu vurğulayan Baş nazir ölkələrimizin və xalqlarımızın tarixən bir-birinə çox güclü tellərlə bağlı olduğunu bildirib. Azərbaycan və Türkiyə parlamentlərinin ölkələrimiz arasında münasibətlərin inkişafındakı rolundan bəhs edən Novruz Məmmədov Türkiyə nümayəndə heyətinin bu səfərinin, keçirilən görüşlərin əlaqələrimizin daha da genişləndirilməsi baxımından önəmli olduğunu deyib.

Azərbaycanın və Türkiyənin iştirakı ilə həyata keçirilən qlobal əhəmiyyətli layihələrdən bəhs edən Baş nazir qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi, TANAP, TAP kimi qlobal əhəmiyyətli layihələrin həyata keçirilməsi qardaş ölkələrimiz arasındakı əməkdaşlığı daha da dərinləşdirir.

Şamil Ayrım Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun yeni tərkibdə Azərbaycana ilk dəfə səfər etdiyini bildirib. O, səfər zamanı Azərbaycan-Türkiyə əlaqələrinin hazırkı vəziyyətinə, münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində görülməli olan işlərə dair önəmli müzakirələr aparıldığını diqqətə çatdırıb. Qardaş ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə ən yüksək səviyyədə olduğunu deyən Şamil Ayrım Azərbaycanın və Türkiyənin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən neft-qaz sektorunda birgə bir sıra mühüm layihələrə imza atdıqlarını söyləyib. O, birgə həyata keçirilən bu layihələrin Azərbaycan və Türkiyə ilə yanaşı, bölgənin də inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

# “İtaliya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir”

*Prezident İlham Əliyevin İtaliyanın iqtisadi inkişaf nazirinin müavini ilə görüşü olub*



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşdən məmnunluğunu bildirdi, səfərin məhsuldar olacağına əminliyini ifadə etdi. Azərbaycan-İtaliya əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin yaxşı tərəfdaş olduqlarını dedi. İtaliya şirkəti tərəfindən inşa olunan “SOCAR-Polymer” zavodunun bir neçə gün əvvəl açılışında iştirakını xatırladan dövlətimizin başçısı ötən il bu zavodun birinci mərhələsinin açılışının İtaliya Prezidenti Sercio Mattarella ilə birlikdə həyata keçirildiyini dedi. Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən neft-qaz, tikinti və iqtisadiyyatın digər sektorlarında da uğurla fəaliyyət göstərdiklərini və ölkəmizin onların fəaliyyətindən məmnun olduğunu bildirdi. Dövlətimizin başçısı Cənub Qaz Dəhlizi layihəsinin icrası ilə bağlı ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu dedi. Qeyd etdi ki, bu layihə dövlətləri və şirkətləri daha da sıx birləşdirir.

İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi görüşə görə minnətdarlığını bildirdi. O, dövlətimizin başçısı ilə görüşün bir çox məsələlərlə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan olduğunu dedi. Andrea Cioffi Azərbaycan ilə münasibətlərin bütün sahələrdə, o cümlədən ticarət sahəsində də inkişaf etdiyini vurğuladı.



# “Cənub Qaz Dəhlizi dayanıqlı layihədir”

*Prezident İlham Əliyev Avropa İnvestisiya Bankının vitse-prezidenti ilə görüşüb*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası toplantılarının təşkilinin yaxşı ənənəyə çevrildiyini vurğulayaraq, bu mühüm tədbirlərdə planlaşdırılan hədəflərə nail olunduğunu qeyd etdi.

Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak Cənub Qaz Dəhlizi layihəsinin uğurlu icrasında Məşvərət Şurasının toplantılarının önəmini vurğuladı. O, Avropa İttifaqının əsas maliyyə strukturu olan bu bankın Cənub Qaz Dəhlizi layihəsinə maliyyə dəstəyi göstərməsinin əhəmiyyətini qeyd etdi. Regionda Azərbaycanın iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələrinə toxunan Vazil Hudak Avropa İnvestisiya Bankının bu kimi nəqliyyat və digər layihələrin də maliyyələşdirilməsində maraqlı olduğunu ifadə etdi.

Layihəyə verdiyi dəstəyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, bu, bankın bölgədə maliyyələşdirdiyi ən böyük layihələrdən biridir. Cənub Qaz Dəhlizinin dayanıqlı layihə olduğunu xatırladan Prezident İlham Əliyev bu kreditlərin Avropa İnvestisiya Bankının və Avropa İttifaqının layihəyə dəstəyini nümayiş etdirdiyini bildirdi. Görüşdə müxtəlif sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru ilə görüşü olub



Fevralın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı kimi vacib tədbirdə iştirakına görə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembona təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Dünya Bankının Cənub Qaz Dəhlizi layihəsinə və Azərbaycanın reallaşdırdığı digər layihələrə verdiyi davamlı dəstəyə görə minnətdarlığını ifadə etdi. Bu əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti Dünya Bankı ilə işbirliyinin uzunmüddətli və məhsuldar olduğunu bildirdi.

Cənub Qaz Dəhlizi layihəsinin icrasının uğurla davam etdirilməsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ötən il layihənin icrasında mühüm irəliləyişlərin olduğunu və bunun bu il də davam etdiriləcəyini dedi.

Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşünü xatırladan dövlətimizin başçısı həmin görüşdə gələcək əməkdaşlıq haqqında geniş müzakirələrin aparıldığını bildirdi.

Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyevanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, Prezident İlham Əliyevin Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında dərin məzmunlu nitqində mühüm məsələlərə toxunduğunu vurğuladı. Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktorunun Davosda Prezident İlham Əliyev ilə görüşdən dərin təəssüratla ayrıldığını bildirdi. Mersi Tembon Azərbaycan ilə Dünya Bankı arasında aparılan müzakirələrdə əksini tapan məsələlərin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlərin reallaşdırıldığını dedi.

Prezident İlham Əliyev xanım Kristalina Georgiyevanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarının Dünya Bankının baş icraçı direktoruna çatdırılmasını xahiş etdi.

# Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçılarına Azərbaycandakı tolerant mühit barədə məlumat verilib



***Fevralın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları ilə görüş olub.***

AZƏRTAC xəbər verir ki, görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı layihənin Azərbaycanın tolerantlıq modeli ilə əyani tanışlıq, eləcə də bu dəyərlərin beynəlxalq aləmdə təbliği və təşviqi baxımından önəmini qeyd edib.

Sonra layihə iştirakçıları ölkəmizdəki multikultural və həmrəylik mühiti, dövlətin tolerantlıqla bağlı ölkə daxilində və beynəlxalq miqyasda həyata keçirdiyi siyasət və fəaliyyət, eyni zamanda, Azərbaycan həqiqətləri barədə məlumatlandırılıblar. Mübariz Qurbanlı bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Xalqımızın minilliklər ərzində formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır.

Azərbaycanda 32-si qeyri-İslam olmaqla 909 dini qurumun dövlət qeydiyyatına alındığını deyən sədr bildirib ki, ölkəmizdə bütün dinlərin mənsublarına bərabər şərait yaradılır, onların öz inanc və etiqadlarına uyğun yaşamaları üçün lazımi tədbirlər görülür. Azərbaycanda 14 kilsə, 7 sinaqoqla yanaşı, bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst fəaliyyət göstərir və onlara dövlət tərəfindən hərtərəfli dəstək verilir. Dinlərin sülhyaratma, dialoq və əməkdaşlıq imkanlarından maksimum istifadənin önəminə toxunan Dövlət Komitəsinin sədri bu prosesdə fəal iştirak edən Azərbaycanın hazırda dinlər və mədəniyyətlərarası dialoqun aparıcı qüvvəsinə çevrildiyini bildirib.

Görüşdə Azərbaycan həqiqətlərindən söz açan Mübariz Qurbanlı Ermənistanın təcavüzkarlıq siyasətini davam etdirdiyini, Azərbaycan ərazisinin iyirmi faizini işğal altında saxladığını vurğulayıb.

Daha sonra Qış Məktəbinin müxtəlif ölkələrdən olan tələbələrinin sualları cavablandırılıb və onlara Dövlət Komitəsinin işğal altındakı torpaqlarımızda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimiz, o cümlədən ölkəmizdəki dinlərarası harmoniya barədə ingilis dilində nəşr etdirdiyi kitablar təqdim edilib.

# Müdafiə naziri Koreyanın ölkəmizdə yeni təyin olunan səfiri ilə görüşüb

Fevralın 20-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Op ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Koreya arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb. Tərəflər hərbi sahədə münasibətlərin uğurla davam etdiyini, əsasən hərbi təhsil sahəsində əməkdaşlığı, Azərbaycan Ordusunun hərbi qulluqçularının Koreya hərbi məktəblərində təhsil almalarını, eləcə də bu ölkədə keçirilən müxtəlif treninqlərdə iştirakını xüsusi vurğulayıb, əlaqələrin inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparıblar.



Koreyalı səfir Azərbaycandakı fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

# Siyavuş Novruzov: "Məhbusların azadlığa çıxmasını istəməyənlər "Milli Şura"da toplaşanlar və xaricdə özünü müxalifət adlandıranlardır"



***"Müxalifətin mitinqlərdə səsləndirdiyi fikirlərin əsası yoxdur. Onlar hökumətin atdığı addımları öz adlarına çıxırlar". Bunu Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.***

S.Novruzov qeyd edib ki, müxalifət keçirdiyi mitinqlərdə xalqa yanlış məlumatlar verirlər: "Prezident İlham Əliyev ötən ilin aprelində - prezident seçkiləri dövründə görüləcək işlərin proqramını açıqlayıb. Seçki platformasında ölkədə həyata keçiriləcək islahatlar əksini tapmışdı. Prezident seçkilərində iştirak edən namizədlərin, Milli Məclisin deputatlarının təklifləri sistemləşdirilərək nəzərə alınır. Azərbaycan hökumətinin ümumi strateji proqramı var ki, burada regionların inkişafı ilə yanaşı, beynəlxalq əlaqələrin də inkişaf etdirilməsi nəzərə alınıb. Bilirsiniz ki, Prezident İlham Əliyevin sərəncamları ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Sosial Tədqiqatlar Mərkəzi yaradılıb. Bu ona görədir ki, cəmiyyətdən gələn təkliflər təhlil edilsin və nəzərə alınsın. Dövlət başçısı regionlarda keçirilən görüşlərdə insanların problemləri ilə maraqlanır. Bu problemlərin hər biri həll edilir. Regionlarda binaların dam örtüklərinin dəyişdirilməsi, içməli su ilə bağlı problemlərin aradan qaldırılması, məktəblərin, bağçaların tikilməsi, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin açılması kimi təkliflər nəzərə alınır və bu işlərin həyata keçirilməsi üçün vəsait ayrılır. Əmək pensiyalarının, minimum əməkhaqqının, tələbələrin təqaüdünün artırılması 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuşdu. Yeni prezident seçkilərindən sonra proqrama daxil edilmişdi, ona görə də 2019-cu ilin dövlət büdcəsində əksini tapdı. Şəhid vərəsələrinə 11 min manatlıq birdəfəlik ödəmələrin verilməsi ilə bağlı narazılıqlar nəzarətə götürülmüşdü. Bu məsələ araşdırıldı və həll edildi. Özünü müxalifət adlandıran bəzi qüvvələr, erməni lobbisindən vəsait alanlar, xaricdə oturub blogerlik edənlər Azərbaycanda aparılan uğurlu islahatlara kölgə salmağa cəhd edirlər. Onlar bu islahatları öz adlarına çıxırlar. Deyirlər ki, "Biz çıxış etdik, dedik, hökumət addımlar atdı". İddia edirlər, hökumət yanvarın 19-da keçirilən mitinqdən qorxduğuna görə bu addımları atır. Bir daha qeyd edirəm ki, hökumətin atdığı addımlar ötən il 2019-cu ilin dövlət büdcəsi müzakirə olunan zaman nəzərə alınmışdı. Onlar xalqı aldadaraq, öz tərəflərinə çəkməyə çalışırlar. Deyirlər ki, mitinqə çox insan gələrsə, əməkhaqqı daha çox artar. Bunların hamısı yalandır, şayiədir. Bilirsiniz ki, Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclasları keçirilir. Hökumət bu istiqamətdə addımlar atır. Məhbusların azadlığa çıxmasını istəməyənlər Milli Şurada toplaşanlar və xaricdə özünü müxalifət adlandıranlardır. Çünki həmin qüvvələr həbsdə olan şəxslərin adından istifadə edib, ətraflarını genişləndirməyə çalışırlar. Yəni onlar istəmir ki, həmin şəxslər azadlığa buraxılsın. Onlara fikir vermək lazım deyil, yalan danışırlar. Əksinə, istəyirlər ki, həbsdə olan şəxslərin müddətləri uzadılsın".

Növbəti mitinqin problemli kreditlərə həsr olunmasına münasibət bildirən YAP rəsmisi qeyd edib ki, hökumət Mərkəzi Banka, Maliyyə Bazarlarına Nəzarət Palatasına, ayrı-ayrı kommersiya banklarına müvafiq tapşırıqlar verib: "Bu məsələ araşdırılır, həlli istiqamətində addımlar atılır. Kreditlərlə bağlı məsələyə yanaşma iki cürdür: 1. Kənd təsərrüfatının inkişafı üçün fermer təsərrüfatı yaratmaq, kiçik sahibkarlıq obyektlərini yaratmaq və digər bu qəbildən olan sahələr üçün götürülən kreditlər. 2. Bahalı avtomobillərin alınması üçün və digər bu tip götürülən kreditlər. Tutaq ki, kimsə kredit götürüb, kənd təsərrüfatına sərmayə qoyub, amma hava şəraiti və yaxud da hava şəraiti imkan verməyib, ona görə də borcu yaranıb. Buna yanaşma fərqli olmalıdır. Amma digəri isə əyləncəyə görə 200 min manatlıq maşın almaq üçün kredit götürüb və qaytara bilməyib. Bu isə yanaşma tam fərqli olmalıdır. Yəni bu məsələlər araşdırılır. Bilirsiniz ki, Konstitusiya Məhkəməsi də dollar kreditləri ilə bağlı qərar qəbul edib ki, bu məsələ bankla razılaşdırılmalıdır. Təbii ki, kommersiya bankları var ki, uzun illərdir fəaliyyət göstərir, kifayət qədər gəlir götürüblər. Ona görə də problemli kreditlərlə bağlı banklar güzəşt etməlidirlər. Bunlar mitinq edir ki, problemli kreditlər həll edildə, desinlər, "Biz mitinq keçirdik, hökumət problemi həll etdi".Fevralın 19-da keçirilən Milli Məclisin plenar iclasında "Əmanətlərin tam sığortalanması haqqında" qanuna dəyişiklik edildi. Dəyişikliklə Azərbaycanda əmanətlərin tam sığortalanması müddəti daha 1 il - gələn il martın 4-nə qədər artırıldı. Dünyanın heç bir yerində əmanətlər 100 faiz sığortalanmır. Yəni Azərbaycanda bank bağlansa da, vətəndaş pulunu geri ala biləcək, dövlət bunu öz üzərinə götürür. Avropanın bir çox aparıcı dövlətlərində əmanətlər 30-60 faiz arası sığortalanır. Azərbaycan yeganə dövlətdir ki, əmanətləri 100 faiz sığortalayır. Bu da 8 milyarda yaxın vəsait tələb edir. Bu, insanların inam və etibarını artırır. Hələ ötən ildən Prezident İlham Əliyev problemi kreditlərin həlli ilə bağlı göstəriş verib. İnsanlar müxalifətin yalanlarına uymamalıdır. Digər bir müxalifyönlü qüvvə deyir ki, imza toplayaq, müraciət edək, təqaüdlər artırılsın. Təqaüdlər kifayət qədər artırılıb, ehtiyac olacaqsa, yenə artırılacaq. Təzyiqlə əməkhaqqı, təqaüd artırıla bilməz. Dövlət başçısı çıxışlarında həmişə deyir ki, hər şey vətəndaşın layiqli yaşaması üçündür. Baxın Prezident İlham Əliyev "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərman imzalayıb. Bu fərman 400-dən artıq çoxmənzilli yaşayış binası ilə bağlı problem həll ediləcək. İndi deyəcəklər, bunu da müxalifət təklif edib. Hökumət bütün sahələrdəki problemləri diqqət mərkəzində saxlayır. Bu da müxalifəti əndişələndirir, bilmirlər, hansı üsula əl atsınlar".

# Sənədsiz bina qalmayacaq

*Prezident İlham Əliyev daha bir "çoxillik həllolunmaz problemə" son qoydu*



Prezident İlham Əliyevin son çıxışlarının birində, vurğuladığı kimi, Onun siyasətinin prioritet istiqamətlərindən biri də, mövcud problemlərin aradan qaldırılmasıdır. Daha dəqiq desək, dövlət başçımızın sosial siyasətinin tərkib hissəsində mühüm yerlərdən birini tutan bu tezis, məhz belə düşünməyə əsas verir ki, xalqı narahat edən yerdə qalan problemlər, qısa müddət ərzində həll olunacaq. Artıq aparılan inqilabi islahatlar və bu islahatlardan doğan reallıqlar göz önündədir. Onlardan biri də Prezident İlham Əliyevin "Bəzi çoxmərtəbəli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" imzaladığı Fərmandır. Məhz bu Fərmanla ölkə rəhbərimiz minlərlə vətəndaşı sevindirdi, artıq sübuta yetirildi ki, Azərbaycanda, ümumiyyətlə, sənədsiz, yaxud qeydiyyatsız bina qalmayacaq. Prezident İlham Əliyev daha bir "çoxillik həllolunmaz problemə" son qoydu.

### Bu Fərman 10 mindən artıq Azərbaycan vətəndaşının böyük sevincinə səbəb olub

Əbəs deyil ki, ölkəmizdə ən çox müzakirə edilən məsələlərdən biri də yeni inşa edilən binalarda onların istismara alınması və həmin binalarda yaşayan sakinlərin mənzil çıxarışı ilə təmin edilməsi ilə bağlı olub. Məhz bu Fərman 10 mindən artıq Azərbaycan vətəndaşının böyük sevincinə səbəb olub. Belə ki, ekspertlərin də gəldikləri nəticələrə görə, Bakıda inşa edilən binaların təxminən 75 faizinin çıxarış, yaxud qeydiyyat sənədi yox idi.

Nəticədə, həmin binalar istismara alınmadığı üçün, burada məskunlaşmış mənzil sahibləri çıxarış əldə edə bilməkdən məhrum idilər. Problemlərlə üzləşən vətəndaşlar isə binaların nə zaman istismara veriləcəyini gözləsələr də, illərdir həmin problemlərinin çözülməməsindən narahat olurdular. Bu Fərman isə, demək olar ki, bütün narahatlıqları birdəfəlik aradan qaldırmış oldu. Artıq müvafiq dövlət qurumları həmin yöndə fəaliyyətə keçiblər.

### Fərman həm iqtisadi, həm də sosial əhəmiyyətə malikdir

Daha bir mühüm amil isə, vətəndaşların çıxarış almaları üçün "ASAN Xidmət"ə müraciət etmələri olacaq. Daha dəqiq desək, sənədləşmə işləri ən peşəkar şəkildə, eləcə də, vaxt itkisi olmadan həyata keçiriləcək, vətəndaşlar mülkiyyət hüquqlarını təmin edəcəklər. Ümumiyyətlə, sözügedən təminat çoxşaxəliyi ilə seçiləcək. Əbəs deyil ki, sözügedən Fərman həm iqtisadi, həm də sosial əhəmiyyətə malikdir və faktiki olaraq, 2019-cu ilin sonunadək 10 min vətəndaşımız, məhz bu Fərmandan yararlanmaq imkanı qazanacaq. Bütün bunlar isə inqilabi islahatların növbəti mərhələsi kimi də qiymətləndirilə bilər. Daha dəqiq desək, Prezident İlham Əliyev bir daha öz vədinə sadiq qaldığını, insan amilinə önəm verdiyini, bu amili istiqamətləndirdiyi uğurlu sosial siyasəti ilə həyata keçirdiyini sübuta yetirdi.

**Rövşən RƏSULOV**

# Vüqar Rəhimzadə: Prezidentin yeni Fərmanı insan, vətəndaş amilinə verilən böyük dəyərdir



Bu gün Azərbaycanda iqtisadiyyatın bütün sahələri kimi, tikinti sektoru da inkişaf edir. Bakı şəhərində qədimliklə müasirliyi birləşdirən memarlıq üslubuna uyğun yaşayış və digər təyinatlı binalar tikilir. Bununla yanaşı, regionlarda aparılan tikinti-quruculuq işlərini də ümumi inkişafın mühüm tərkib hissəsi kimi səciyyələndirmək olar. Təbii ki, bu sektorun inkişaf etdirilməsində məqsəd insanların sosial rifahının daha da yaxşılaşdırılmasıdır. Bu günlərdə Azərbaycan Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" imzaladığı Fərman on minlərlə ailənin sevincinə səbəb olub. Bu Fərman həmin sahədə illərdir həllini gözləyən problemə son qoyub. Artıq sənədsiz və qeydiyyatsız bina qalmayacaq. Mənzil sahibləri bundan sonra heç vaxt belə problemlərlə qarşılaşmayacaqlar. Fərmanda da qeyd edildiyi kimi, əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Azərbaycanın sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilir. Sözsüz ki, bu mühüm sənəd sayəsində bir çox insanın problemi öz həllini tapacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə söyləyib.

Bu Fərmanın uğurlu sosial siyasətin bariz nümunəsi olduğunu qeyd edən Vüqar Rəhimzadə deyib: "Dövlətimizin başçısının imzaladığı Fərmanda bir sıra mühüm məqamlar öz əksini tapıb. Sənəddə qeyd edilir ki, bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərinin hüquq və maraqları nəzərə alınmadan aparılıb ki, bu da, öz növbəsində, bir sıra hallarda həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib. Prezident İlham Əliyevin böyük humanizm göstərərək həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədilə imzaladığı yeni Fərman insan, vətəndaş amilinə verilən böyük dəyərdir".

# "10 mindən artıq vətəndaşımız Fərmandan yararlanmaq imkanı qazanacaq"



**"Uzun müddət idi ki, Azərbaycanda ən çox müzakirə edilən məsələlərdən biri də yeni inşa edilən binalarda binaların istismara alınması və həmin binalarda yaşayan sakinlərin mənzil çıxarışı sadə dillə desək, "kupça" ilə təmin edilməsi ilə bağlıdır". Bunu SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov deyib.**

Ekspertin sözlərinə görə, faktiki olaraq bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı uzun müddət müzakirə edilən problemin həll edilməsinə imkan yaradır: "Söhbət 10 mindən artıq vətəndaşımızın sözügedən Fərmandan faydalanmasından gedir. Belə ki, Bakıda son illər inşa edilən binaların təxminən 75 faizinin "kupça"sı yox idi. Yeni binalar istismara alınmadığı üçün bina sakinləri mənzil çıxarışı əldə edə bilmirlər. Nəticə etibarilə bu Fərman imkan verəcək ki, binaların istismarı prosesi sadələşdirilsin və ilin sonunadək əksər binaların istismara qəbul etmək mümkün olsun. Bu həmin binaların "kupça" ilə təmin olunmasına imkan verəcək. Belə ki, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi 2 ay müddətində bütün binalarla bağlı 2019-cu il yanvarın 1-dək keçirilən binalarla bağlı rəy hazırlayıb Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və ya yerli icra hakimiyyəti orqanına təqdim edəcək.

Daha sonra sözügedən qurumlar 7 gün müddətində müsbət rəy almış binaların istismara qəbul edilməsi ilə bağlı qərar verib onun yerləşdirilməsini həyata keçirəcək. Binalar istismara alındıqdan sonra isə bina sakinləri "ASAN Xidmət"ə müraciət etməklə öz mənzillərinə çıxarış və ya "kupça" ala biləcəklər. Bu bir tərəfdən imkan verəcək ki, 10 mindən artıq vətəndaşın mülkiyyət hüquqlarının qorunması təmin olunsun və onlar artıq sahib olduqları mənzillərdə rəsmi olaraq mənzillərin mülkiyyət hüququna malik olacaqlar. Eyni zamanda bu həm binaların idarəetmə sisteminin modernləşməsi, həm də şəffaflığın gücləndirilməsi baxımından vacibdir. Həmçinin bu kommunal haqların məbləğinin optimallaşdırılması sarıdan da önəmlidir. Xüsusən də mülkiyyət hüququ tanındıqdan sonra həmin binalardan mənzillərin girov kimi təqdim edilərək klientlərin cəlb edilməsinə və əməliyyatların aparılmasına imkan verəcək. Eyni zamanda bu əmlak bazarında qiymətlərin optimallaşdırılması və əmlak bazarı dövriyyəsinin genişləndirilməsi baxımından çox vacibdir. O baxımdan Fərman həm iqtisadi, həm də sosial əhəmiyyətə malikdir və nəticə etibarilə 2019-cu ilin sonunadək 10 min vətəndaşımız məhz bu Fərmandan yararlanmaq imkanı qazanacaq".

# "Dövlətimizin başçısının bu Fərmanından sonra mənzil sahibləri bir daha sənəd problemi ilə üzləşməyəcəklər"



Azərbaycan Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı dövlətimizin başçısının vətəndaşları narahat edən bütün məsələləri diqqət mərkəzində saxladığının, ölkə həyatının bu və ya digər sahəsində mövcud olan problemlərin aradan qaldırılması istiqamətində çevik və təxirəsalınmaz tədbirlər həyata keçirdiyinin göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib.

O qeyd edib ki, 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismarına icazə verilməsi ilə bağlı Fərmanla müəyyən edilmiş qaydalar ciddi araşdırmaların və mövcud vəziyyətin ətraflı təhlili nəticəsində ortaya çıxan konseptual yanaşmanın nəticəsidir.

Onun sözlərinə görə, Fərmanda yer alan bütün müddəalar və problemlərin aradan qaldırılması üçün tətbiqi tələb olunan mexanizmlər, ilk növbədə, Azərbaycan vətəndaşının maraqlarının təmin olunmasına, hüquqlarının qorunmasına xidmət edir. Fərmanla tikinti şirkətlərinə müvafiq dövlət qurumu tərəfindən verilmiş rəy əsasən mövcud çatışmazlıqları aradan qaldırmaq üçün 5 ay möhlət verilməsi nəzərdə tutulur ki, bu da, ilk növbədə, çoxmənzilli yaşayış binaları və komplekslərinin sakinlərinin daha təhlükəsiz, daha rahat mənzillərdə yaşaması, onların maraqlarının hərtərəfli təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, həm də tikinti şirkətlərinə bu və ya digər binanın inşası zamanı yol verdikləri xətaları aradan qaldırmağa imkan verir.

Azərbaycan Prezidentinin bundan öncə imzaladığı bütün hüquqi-normativ aktlar kimi "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanın da fəlsəfi mahiyyətində Azərbaycan vətəndaşının maraqları, insan amili, humanizm prinsipləri dayanır.

Bu Fərmanın çoxmənzilli yaşayış binalarında mənzil əldə edən Azərbaycan vətəndaşlarının olduqca mühüm, bəlkə də həyati əhəmiyyət kəsb edən problemlərinin həllinə imkan yaratdığını bildirən ekspert deyib: " İmzalanmış yeni Fərman bu sahədə mövcud olan çatışmazlıqlara nöqtə qoyur. Hər bir insan üçün öz evində rahat və problemsiz yaşamaq mühüm sosial-psixoloji əhəmiyyət daşıyır. Bu, olduqca həssas məsələdir. Ölkəmizdə güzəştli mənzil sisteminin tətbiqi, İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi qaydalarının müəyyənləşdirilməsi, ipoteka şərtlərinin asanlaşdırılması, əhalinin ən müxtəlif təbəqələrinin mənzillərlə təmin edilməsi istiqamətində həyata keçirilən çoxsaylı layihələr Prezident İlham Əliyevin Azərbaycan vətəndaşlarının həssaslıqla qəbul etdikləri bütün məsələlərə xüsusi diqqət və qayğısının göstəricisidir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

21 fevral 2019-cu il

# Azərbaycanda tələbə-gənclərə böyük diqqət var

*"Səs" qəzetində ali təhsil müəssisələrinin müəllim və tələbə nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilib*



***Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında Sərəncam imzalayıb. Dünən bu məsələ ilə bağlı "Səs" qəzetində ekspertlərin, ali təhsil müəssisələrinin müəllim və tələbə nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirildi. Dəyirmi masada Bakı Dövlət Universitetinin professoru Şahlar Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Samir Baxşəliyev, Azərbaycan Dövlət Neft Sənayesi Universitetinin neft-mexanika fakültəsinin dekanı Əlihikmət Əhmədov, UNEC-in distant-qiyabi və əlavə təhsil mərkəzinin direktoru Səbuhi Tanrıverdiyev, UNEC-in tələbə rektoru Elmir Sadıqov, Turizm və Menecment Universitetinin dekanı Bahadur Bilalov, Azərbaycan Tibb Universitetinin tədris şöbəsinin müdiri Samir Cavadov, Bakı Slavyan Universitetinin tələbələri Nuranə Qasımova, Səfiyyə Mustafayeva, Azərbaycan Dövlət Neft Sənayesi Universitetinin tələbəsi Aysel Bədəlzadə, Turizm və Menecment Universitetinin tələbəsi Jalə Novruzova, Azərbaycan Tibb Universitetinin tələbəsi Pərvin Nəsirov iştirak edirdilər.***

(Əvvəli ötən sayımızda)

Dəyimi masanı giriş sözü ilə açan "Səs" qəzetinin əməkdaşı İlham Əliyev bildirdi ki, on ildən artıqdır ki, ənənəvi olaraq, ölkənin ictimai-siyasi və sosial həyatında böyük önəm kəsb edən və ictimai maraq doğuran məsələlər ətrafında "Səs" qəzeti tərəfindən təşkil olunan dəyirmi masalar cəmiyyətdə böyük maraqla izlənilməkdədir. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri, eləcə də, ictimai-siyasi, sosial məsələlər dövlət nümayəndələri, millət vəkilləri və ictimai təşkilat rəhbərləri tərəfindən müzakirə olunur: "Bildiyimiz kimi, hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu günlərdə Azərbaycanda təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan məlum sərəncamlar və Fərman dövlət-gənclər siyasətinin məntiqi davamıdır. Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması dövlətimizin gənclərə olan münasibətinin daha bir ifadəsidir".

### MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ ÜÇÜN GENİŞ İMKANLAR AÇILIB

**ƏLİHİKMƏT ƏHMƏDOV:**

- Son illər Azərbaycanın iqtisadiyyatı kimi elmi və təhsili də geniş inteqrasiya proseslərinə cəlb olunub. Elm və təhsil sahələrində alim, müəllim və tələbələrin mübadiləsi geniş vüsət alıb. Müasir mərhələdə ölkəmizin iqtisadi qüdrəti gənclərimizin yeni bilik, informasiya və texnologiyaları qavrama qabiliyyəti ilə, bilavasitə bağlıdır. Mövcud intellektual potensialın zənginləşdirilməsi ölkəmizdəki elm və təhsil ocaqları ilə bərabər, xarici ölkələrdə kadr hazırlığı məsələsini də aktuallaşdırır. Ölkə başçısının elm və təhsilin inkişafı ilə bağlı həyata keçirilən siyasəti nəticəsində reallaşan sərəncamlar, dövlət proqramları sırf dövlətçiliyimizə sadiq, vətənpərvər, yüksək intellekt sahibi və dünyagörüşlü gənclərin yetişməsinə gətirib çıxarır. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ölkəmizdə 3500 tələbə təhsil almışdır. Bu gün Azərbaycanda gənclərin uğurlu gələcəyi üçün hər bir şərait vardır.

Bu günlərdə Azərbaycan Respublikası Prezidentinin doktorantların, ali və orta təhsil müəssisələrində təhsil alan bakalavr və magistr tələbələrinin təqaüdünün artırılması barədə imzaladığı sərəncamları təqdirəlayiqdir. Hesab edirəm ki, bu, qeyd olunan pillələrdə təhsil alan tələbələr üçün böyük əhəmiyyət kəsb edir. Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması tələbə-gənclərə daha böyük stimuldur.

Bu gün bizim univesitet kadr hazırlığı prosesinə böyük diqqət ayırır. ADNSU-nun nəzdində yaradılan Fransa-Azərbaycan Universiteti məzunlarını ADNSU və Strasburq Universitetinin diplomları ilə təmin edir. Beləliklə, tələbələr xaricə getmədən ADNSU ilə bərabər Fransanın ən qədim universitetlərindən biri olan UNİSTRA-nın diplomunu ala biləcəklər. Universitetdə təhsil Fransa təhsil sisteminə uyğunlaşdırılmış formada yüksək ixtisaslı Fransa və Azərbaycan müəllimlərindən ibarət beynəlxalq tədris heyəti tərəfindən aparılır. Bütün bunlar müasir Azərbaycan gəncliyi üçün yaradılan şəraitdir.

### GƏLƏCƏYİMİZ SAYILAN GƏNCLƏRİMİZ STİMULLAŞDIRICI TƏDBİRLƏRDƏN RUHLANARAQ ÖLKƏMİZ ÜÇÜN LAYİQLİ KADRLAR KİMİ YETİŞƏCƏKLƏR

**SƏBUHİ TANRIVERDİYEV:**

- Bu günlərin ən yaddaqalan hadisələrindən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi, ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə imzaladığı sərəncamlar oldu. Həmin sənədlər təhsil ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb. Bu artım gənclərin yüksək təhsil almalarında növbəti stimuldur. Düşünürəm ki, bütün bunlar ölkə başçısının elmə, təhsilə və gənclərə göstərdiyi növbəti diqqət və qayğının bariz nümunəsidir. Tələbə təqaüdlərinin əsaslı şəkildə artırılması ali məktəblərdə tələbələr arasında daha yüksək nəticələr göstərmək istiqamətində motivasiya-

# Azərbaycanda tələbə-gənclərə böyük diqqət var

*"Səs" qəzetində ali təhsil müəssisələrinin müəllim və tələbə nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilib*





nı gücləndirəcək.

Ölkədə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə imzalanmış Sərəncama əsasən, təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə, 50 faizdən az olmayan səviyyəyə çatdırılması təmin ediləcək. Bütövlükdə, təqaüdlərin əsaslı şəkildə artırılması təhsillə elmin vəhdətinə də təsirsiz ötüşməyəcək. Yüksək nəticə göstərən ali məktəb tələbələrinin elmə marağı artacaq, şəffaflıq və ədalət prinsipləri güclənəcək, keyfiyyətli təhsilə olan tələbat artacaq. Cənab Prezidentin imzaladığı iki Sərəncam və bir Fərmanı sosial-iqtisadi baxımdan önəmlidir. Əminəm ki, gələcəyimiz sayılan gənclərimiz bu stimullaşdırıcı tədbirlərdən ruhlanaraq ölkəmiz üçün layiqli kadrlar kimi yetişəcək, eyni zamanda, elm arxasınca gedənlərin sayı daha da artacaq.

## MƏN GƏNC TƏLƏBƏ OLARAQ TƏHSİLİMDƏ DAHA DA YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ ETMƏYƏ ÇALIŞACAĞAM

**AYSEL BƏDƏLZADƏ:**

- Dövlət başçısı tərəfindən ölkəmizdə elmə, təhsilə göstərilən diqqət, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində qəbul edilən qərarlar biz tələbələr tərəfindən yüksək qiymətləndirilir. Bu qeyd etdiyimiz sənədlər gənc nəsildə elmə və tədqiqat işləri ilə məşğul olmağa marağın yaranmasında əhəmiyyətli rol oynayacaq. Mən Azərbaycan Dövlət Neft Sənayesi Universitetinin tələbəsi kimi, 3 ildir ki, əlaçı təqaüdü alırdım. Bunun məbləği 112 manat idi. İndi bu məbləğin artırılması məni daha səmərəli şəkildə təhsili davam etdirməyə ruhlandıracaq. Bu, hər bir tələbə gənc kimi mənim də üzərimə məsuliyyət qoyur. Son dövrlər gənclərin elmə marağının güclənməsini görürük. Əlbəttə ki, bu marağın artmasının maddi tərəfi də əhəmiyyətlidir.

Mən gənc tələbə olaraq, bundan sevinir və təhsilimdə daha da yüksək nəticələr əldə etməyə çalışacağam. Təbii ki, ölkəmizdə gənclərə yaradılan şərait yetərincədir. Belə ki, mənim təhsil aldığım universitetdə məzun-karyera sərgisi keçirilir. Sərgiyə çoxlu sayda müəssisə və şirkətlərin vakant iş yeri çıxarılır. Gəncləri gələcək karyeralarını qurması üçün bu cür sərgilər olduqca müsbət rol oynayır. Universitet təkcə təhsil vermir, həm də onların gələcək həyatını qurmaqda bir vasitəçi olmağa çalışır. Eyni zamanda, bu cür sərgilərdə bakalavr və magistrlər həmin istehsalat müəssisələrinin tələblərinə uyğun olaraq, indidən hansı biliklərə yiyələnməyi müəyyənləşdirirlər.

## GƏNCLİK ONA OLAN ETİMADI HƏR ZAMAN DOĞRULDACAQ

**SƏFİYYƏ MUSTAFAYEVA:**

- Bu gün Azərbaycan gəncliyi ölkənin ictimai-siyasi, həmçinin, sosial-iqtisadi və digər sferalarında aktiv fəaliyyət göstərir, intellektual imkanları və yaradıcılığı ilə dövlətçiliyimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verir. Gəncliyə göstərilən dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir. Bu sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Ölkəmizdə aparılan gənclər siyasəti üzərimizə böyük məsuliyyət qoyur. Tam səmimi deyirəm ki, görülən işlər ilbəil daha da geniş sahələri əhatə edir. Təhsil sahəsində aparılan islahatlar da gənclər siyasətinin ən vacib istiqamətlərindən biridir. Bu gün tələbələrin təqaüdünün artırılması təhsildə rəqabəti gücləndirəcək.

Bir gənc olaraq, bütün gənclərin adından deyə bilərəm ki, bu gün Azərbaycan gəncliyi ona göstərilən diqqətin fərqindədir və bu qayğıdan maksimum faydalanır. Buna əmin olmaq lazımdır ki, bu gənclik ona olan etimadı hər zaman doğruldacaq. Bu sərəncamlar biz tələbələr arasındakı daha yaxşı oxumaq yarışına yeni stimul verəcək.

## ÖLKƏ BAŞÇISININ TƏLƏBƏ TƏQAÜDLƏRİNİN ARTIRILMASI İLƏ ƏLAQƏDAR İMZALADIĞI SƏNƏDLƏR TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ, TƏLƏBƏLƏRİN SOSİAL MÜDAFİƏSİNİN DAHA DA GÜCLƏNDİRİLMƏSİNƏ XİDMƏT EDƏCƏK

**SAMİR CAVADOV:**

- Müasir dövrümüzdə ölkəmizdə təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi günün reallıqlarıdır. Müəllimlərin əmək haqlarının, tələbə və magistrlərin təqaüdlərinin artırılması da təhsilimizə olan diqqətin məntiqi nəticəsidir.

Ölkə başçısı İlham Əliyevin müxtəlif illərdə imzaladığı sərəncamlar tələbələrin təqaüdünün miqdarının, davamlı olaraq, artmasına səbəb olub. Bununla bərabər, qəbul imtahanlarında yüksək nəticə göstərən, tələbə adını qazanan gənclərə Prezident təqaüdləri verilib. Bu günlərdə isə, Prezident İlham Əliyev tərəfindən imzalanan məlum sərəncamlar və Fərman təhsilə ayrılan diqqətin daha bir təzahürüdür. Əlbəttə ki, bütün bunlar Azərbaycan Prezidentinin ölkə gənclərinə, xüsusən də, təhsil alan tələbələrə xüsusi diqqət və qayğısının nümunəsidir. Azərbaycan Prezidenti hər zaman çalışır ki, ölkə gəncləri savadlı, bilikli olsun, onların sosial təminatları daha da yaxşılaşsın. Azərbaycanda həyata keçirilən təhsil siyasəti, ölkə başçısının tələbə təqaüdlərinin artırılması ilə əlaqədar imzaladığı sənədlər ali məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin sosial müdafiəsinin daha da gücləndirilməsinə xidmət edəcək. Prezident İlham Əliyevin imzaladığı Sərəncam və Fərman 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdlərinin artmasına səbəb olacaq. Bu, gənclərin maariflənməsinə, savadlanmasına, elmi inkişafına göstərilən xüsusi diqqət və qayğının davamıdır.

## BU DİQQƏT BİZİ TƏKCƏ RUHLANDIRMADI, HƏM DƏ ÜZƏRİMİZƏ BÖYÜK MƏSULİYYƏT DƏ QOYDU

**JALƏ NOVRUZOVA:**

- Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Bu günlərdə Prezident İlham Əliyevin tələbələrin təqaüdlərinin artırılması haqqında imzaladığı sənədlər ürəkaçan oldu. Bu sənədlər, demək olar ki, bütün tələbə spektrini əhatə edir və təhsilin fasiləsizliyinin daha möhkəm zəmin üzərində qurulmasına şərait yaradacaq. Bu diqqət bizi təkcə ruhlandırmadı, həm də üzərimizə daha yaxşı oxumaq, ölkə gəncliyini daha yüksək səviyyələrdə təmsil etmək vəzifəsi, məsuliyyəti də qoydu. Əminəm ki, həmin vəzifənin öhdəsindən ləyaqətlə və bacarıqla gələcəyik.

## SƏRƏNCAM TƏHSİLƏ MARAĞI STİMULLAŞDIRMAĞA VƏ TƏHSİL ALANLAR ARASINDA RƏQABƏT MÜHİTİNİ YARATMAĞA DA İMKAN VERƏCƏKDİR

**ELMİR SADIQOV:**

- Bu gün dövlət-gənclər siyasəti ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Bunun nəticəsidir ki, bugünkü Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellektli yetişir, beynəlxalq miqyaslı yarış və tədbirlərdə ölkəmizi layiqincə təmsil edir. Respublikamızda tələbə-gənclər hərəkatı həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətini təşkil edir. Ölkə başçısının imzaladığı bu sənəd tələbələrə dövlət qayğısını artırır, eyni zamanda, təhsilə marağı stimullaşdırmağa və təhsilin keyfiyyətini yüksəltmək üçün təhsilalanlar arasında rəqabət mühitini yaratmağa xidmət edir. Sərəncamın tətbiqi aztəminatlı ailələrdən olan tələbələrin sosial vəziyyətinin yüksəlməsinə səbəb olacaq.

Sərəncam təhsilə marağı stimullaşdırmağa və təhsilalanlar arasında rəqabət mühitini yaratmağa da imkan verəcəkdir. Bu da, öz növbəsində, təhsilin keyfiyyətinin yüksəldilməsinə zəmin yaradacaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP Yasamal rayon təşkilatı 26 yaşını qeyd etdi

## *Tağı Əhmədov: "Bu gün partiyamızın Sədri, Prezident İlham Əliyev Cənablarının rəhbərliyi ilə biz yeni-yeni uğurlara imza atırıq"*

***Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının yaradılmasının 26-cı ildönümünə həsr edilmiş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə partiyanın rayon təşkilatının qərargahında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə ucaldılmış büstü önünə gül-çiçək dəstələri düzüblər.***



Tədbir təşkilatın konfrans zalında davam etdirilib. YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov partiyanın yaranma zərurətindən və bir sıra siyasi aspektlərdən bəhs edərək, tədbir iştirakçılarını salamlayıb.





Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ulu Öndər Heydər Əliyevin, eyni zamanda, partiyanın fəaliyyətində tarixi xidmətləri olmuş şəxslərin xatirələri bir dəqiqəlik sükutla anılıb.

Tağı Əhmədov çıxışında Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevə olan ümumxalq məhəbbətindən, Ümummilli Liderin xalqımız qarşısındakı xidmətlərindən danışıb. Qeyd edib ki, ötən əsrin sonlarında Azərbaycanda mövcud olan mürəkkəb ictimai-siyasi hadisələr, dövlətçilik təcrübəsindən xəbərsizlərin Azərbaycana rəhbərliyi müharibə şəraitində yaşayan ölkəmizi uçuruma aparırdı. İnsanlar təlaş içərisində idilər. "O dövrdə xalqı bir ideya ətrafında birləşdirəcək vahid təşkilata və qətiyyətli liderə ehtiyac duyulurdu. Belə bir şəraitdə cəmiyyətimizin parlaq simaları, Azərbaycan tarixinə "91-lər" kimi yazılan böyük hörmətə layiq ziyalılar Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Heydər Əliyevə müraciət edərək, xalqı düçar olduğu bəlalardan qurtarmaq üçün çıxış yolu tapmağa çağırdılar" deyə qeyd edən YAP Yasamal rayon təşkilatının sədri 1992-ci il noyabrın 21-də Naxçıvanda 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildiyini, həmin hadisənin yenicə müstəqilliyini qazanmış respublikamızın həyatında tarixi hadisə, dönüş nöqtəsi olduğunu bildirib.

Həmçinin, vurğulanıb ki, YAP Yasamal rayon təşkilatının təməli də həmin çətin dövrlərdə qoyulub və artıq 26 ildir ki, partiyanın rayon təşkilatı bu şanlı-şərəfli yolda addımlayır: "Bu gün partiyamızın Sədri, Prezident İlham Əliyev Cənablarının rəhbərliyi ilə biz yeni-yeni uğurlara imza atır, Ulu Öndər Heydər Əliyev ideologiyasının inkişaf xətti ilə növbəti qələbələrə doğru addımlayırıq. Artıq 16 ildir ki, Prezident İlham Əliyev bu ölkəyə rəhbərlik edir, xalqımız bu siyasətin ətrafında mütəşəkkilliklə birləşib".



Bu gün dövlətçilik əleyhinə fəaliyyət göstərənlərin cəhdlərinin uğursuzluqla nəticələnəcəyini deyən Tağı Əhmədov, Azərbaycan xalqının belə ünsürlərə heç vaxt inanmadığını, onların xəyanətkar fəaliyyətlərini qəti şəkildə pislədiyini deyib, əmin olduğunu vurğulayıb ki, Yeni Azərbaycan Partiyasını və xalqımızı qarşıda daha böyük qələbə və zəfərlər gözləyir.

Tədbirdə çıxış edən Yasamal rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqlarına uyğun olaraq, bütün ölkə ərazisində həyata keçirilən geniş miqyaslı abadlıq və quruculuq işlərindən söz açaraq, Yasamal rayonunun da bu istiqamətdə inkişaf yolu ilə irəlilədiyini bildirib. "Bu gün, partiyamızın Sədri, Prezident İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bütün sahələrdə gördükləri işləri, yorulmaz fəaliyyətləri hər birimizdə fərəh və qürur hissləri doğurur" deyən Əziz Əzizov ötən il keçirilmiş prezident seçkilərindən sonra dövlət rəhbərinin, ilk olaraq, məhz Yasamal rayonuna gəldiyini xatırladıb və bu hadisənin bütün yasamallılar üçün tarixi hadisə olduğunu deyib : "Təkcə ötən müddət ərzində Prezident İlham Əliyev Yasamal rayonuna 4 dəfə səfər etməklə yanaşı, hər səfərində möhtəşəm açılışlarda iştirak edib. Əlbəttə ki, bu, bizləri qürurlandırır".

Əziz Əzizov gənclərin də fəaliyyətinə toxunaraq, deyib ki, ölkəmizdə mövcud sabitliyi, inkişafı pozan xəyanətkar qüvvələr var və onlar əldə edilən inkişaf nailiyyətlərindən narahat olurlar. "Vətənini, dövlətini sevən, Yeni Azərbaycan Partiyasının sıralarında cəmləşən gəncliyimiz də öz fəallıqlarını göstərməli, həmin qüvvələrə layiq olduqları cavablarını verməlidirlər" deyə natiq qeyd edib.

Əziz Əzizov YAP Yasamal rayon təşkilatının bütün üzvlərini partiyanın yaradılmasının 26-cı ildönümü münasibəti ilə təbrik edib və uğurlar arzulayıb.

Çıxış edən "İki sahil" qəzetinin baş redaktoru, YAP-ın Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə ümumxalq tribunasına çevrilən YAP-ın tarixindən bəhs edərək, vurğulayıb ki, artıq inkişafın Azərbaycan modeli dünyada özünü doğruldur və təbliğ edilir. Bütün bunlar isə 26 illik çətin və şərəfli yolda əldə olunub. "Bu gün, əldə edilən bütün uğurlarda Heydər Əliyev qətiyyəti dayanır" deyə qeyd edən Vüqar Rəhimzadə, həmçinin, Ulu Öndər tarixi kəlamını da xatırladıb. "Ulu Öndər Heydər Əliyev deyirdi ki, biz müxalifətçilik naminə müxalifətdə deyilik, xalq naminə müxalifətdəyik. Həmin vaxtlarda bu ideya ətrafında birləşən insanlara qarşı ardıcıl basqılar törədilirdi. Ulu Öndərin səsini xalqa çatdıran "Səs" qəzetinə, orada çalışan jurnalistlərə qarşı dəfələrlə hücumlar olundu. Lakin kimsə mübarizə yolundan geri çəkilmədi. Bəli, məhz Azərbaycan xalqının və dövlətçiliyinin qorunması, xilası üçün Ulu Öndər Heydər Əliyev xalqının, xalqı isə Onun yanında dayandı. Ötən 26 ildə dağılmaq ərəfəsində olan Azərbaycanı qüdrətli Azərbaycana çevirdi. Bu gün partiyamızın sıralarında 700 mindən artıq insanlar cəmləşib. Siyasi Şuranın üzvü olaraq, deyə bilərəm ki, Azərbaycan dövləti və xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra daha böyük uğurlara və nailiyyətlərə imza atacaq".

Vüqar Rəhimzadə son vaxtlar aparılan islahatlara və sosial-iqtisadi uğurlara da toxunaraq, bildirib ki, bu uğurlardan təlaş keçirənlər müxtəlif söyüş kampaniyalarına, sosial şəbəkələr vasitəsi ilə uğursuz vasitələrə əl atırlar: "Məhz bütün bunlara görə, hər birimiz dövlətimizi qorumalı, belə xəyanətkarların, yaramaz əməllər törədənlərin qarşılarına çıxaraq, qəti cavablarımızı verməliyik. Çünki bu dövlət bizim hər birimizindir, necə mübarizliklər nümayiş etdirmişiksə, bundan sonra da qarşımızda dayanan əsas vəzifələrimizdən biri də bu olmalıdır".

"Səs" Media Qrupunun baş direktoru Bəhruz Quliyev bütün YAP üzvlərini təbrik edib və partiyanın təsis olunduğu illərdə ölkədəki gərginlikdən, səbatsız hakimiyyətin yaratdığı xaosdan danışaraq, bildirib ki, ilk gündən ölkədəki sabitliyin, inkişafın istiqamətlərini irəli sürdüyü konsepsiya ilə müəyyənləşdirən Ulu Öndər Heydər Əliyev bununla müstəqilliyimizin əbədiliyini təmin edib. "Ölkədə ictimai-siyasi proseslərin mürəkkəbləşdiyi bir zamanda tarixi zərurətdən yaranan, xalqa daha yaxın olan Yeni Azərbaycan Partiyası ölkədə demokratiyanı, müasir siyasi sistemi formalaşdırdı" deyən Bəhruz Quliyev bildirib ki, bu gün sosial şəbəkələrdə Azərbaycan dövlətinin və xalqının əleyhinə mənəvi terror tətbiq edilir, söyüş kampaniyaları aparılır: "Xalqımıza qarşı belə çirkin kampaniyaları təşkil edən texnoloqlar yaxşı bilirlər ki, xalqımız söyüşlərə, təhqirlərə susan xalq deyil. Məhz bu vasitələrlə sabitliyi pozmağa çalışırlar. Ancaq həmin kampaniyalarda iştirak edənlər unutmamalı və birdəfəlik dərk etməlidirlər ki, onların cəhdləri istədikləri nəticəni verməyəcək. Çünki Azərbaycan xalqı inkişafın, sabitliyin, tərəqqinin ardınca gedir və bu yoldan bizləri heç bir qüvvə çəkindirə bilməz. Bu yol Ulu Öndər Heydər Əliyev yoludur, bu yol müstəqil, güclü Azərbaycan və ölkəmizi qüdrətli edən, partiyamızın Sədri, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yoldur. Yaşasın, Yeni Azərbaycan Partiyası! Yaşasın Cənab İlham Əliyev!"

Tədbirdə gənclər adından çıxış edən Atababa Manafov da vurğulayıb ki, YAP ətrafında birləşən Azərbaycan gəncliyi bundan sonra da partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək, Azərbaycanın inkişafı və tərəqqisi yolunda yorulmadan çalışacaqlar.

Sonra bir qrup fəal partiya üzvləri diplom və fərmanlarla mükafatlandırılıdılar.

Mükafatlandırılmalardan sonra, tədbirin bədii hissəsi açıq elan edilib. Ölkəmizin tanınmış mədəniyyət və incəsənət ustaları bir-birindən maraqlı konsert proqramları ilə çıxış edərək, tədbir iştirakçılarına bayram əhval-ruhiyyəsi bəxş ediblər.

***Rövşən NURƏDDİNOĞLU***

# Ölkəmizin sabahına Prezident qayğısı

**Azərbaycan Respublikasında tələbə - gənclərin təhsil almalarının stimullaşdırılması istiqamətində ardıcıl dövlət siyasəti həyata keçirən Prezident İlham Əliyevin sərəncamları ilə tələbələrin təqaüdlərinin artırılması və yüksək bal toplamış tələbələrin dövlət sifarişi ilə təhsil almalarının təmin edilməsi, istedadlı tələbələr üçün "Sabah" qruplarında təhsilin təşkilinin həyata keçirilən siyasətin konkret təzahürləridir. 2019-cu ilin Dövlət Büdcəsində dövlət sifarişli yerlərin artırılması üçün əlavə vəsait qoyulmasının nəzərdə tutulması da həmin istiqamətin daha da inkişaf etdirilməsini təmin edəcək.**

Prezident İlham Əliyevin "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" 2019-cu il 14 fevral tarixli Sərəncamı müstəqil dövlətimizin Azərbaycanın sabahı olan tələbə gəncliyə göstərdiyi böyük qayğının daha bir əməli ifadəsidir. Prezident Sərəncamı, ilk növbədə, ali və orta ixtisas təhsili müəssisələrində, Azərbaycan Milli Elmlər Akademiyasında təhsilin bütün pillələri və səviyyələrini, habelə, peşə təhsili üzrə təhsil alan tələbələri əhatə edir. Yəni peşə məktəblərində təhsil alan tələbələrdən bakalavr, magistratura və doktorantura pilləsinə qədər təhsildə akademik nailiyyətləri olan təhsilalanların dövlət qayğısı ilə əhatə olunması nəzərdə tutulur. Bütövlükdə, dövlət qayğısı martın 1-dən etibarən mərhələli şəkildə təhsildə akademik nailiyyətləri olan tələbələrin mütləq əksəriyyətini əhatə edəcək. Belə ki, Prezident İlham Əliyevin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən, martın 1-dən təqaüd alanların sayının 16 min vahid artırılaraq, hazırda hazırkı 31 faizdən cəmi 6 ay sonra, növbəti tədris ilinin başlanğıcında 45 faizə, 2020-2021-ci tədris ilində isə 50 faizdən az olmayan səviyyəyə çatdırılacağı müəyyən edilib. Qeyd edilənlər dövlətimiz üçün tələbə - gənclər siyasətinin davamlı olduğunu və strateji xarakter daşıdığını aydın surətdə göstərir. Bu, müstəqil dövlətimizin ölkəmizin sabahı olacaq yeni nəsil gəncliklə əlaqədar qayğılara özünün strateji xəttində ardıcıl olaraq yer verdiyini nümayiş etdirir. Bir az əvvəl, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə üzrə gənclərlə keçirdiyi tarixi görüşdə yeni nəslin inkişafı ilə əlaqədar səsləndirdiyi fikirlər, ilk olaraq, tələbələrin təqaüdlərinin artırılması ilə əlaqədar dövlət sərəncamında öz əksini tapıb. Bununla Azərbaycan Prezidenti növbəti dəfə də verdiyi vədləri həyata keçirməkdə qərarlı olduğunu nümayiş etdirir. Bundan başqa, tələbələrin təqaüdlərinin artırılması üçün akademik göstəricilərin, qazanılan təhsil nailiyyətlərinin əsas faktor kimi qəbul edilməsi dövlət qayğısının, sadəcə, sosial təminat olmayıb, həm də bilik və bacarıqların, mütəxəssis hazırlığının daim yüksəldilməsinə hesablanmış maddi stimul olduğunu nəzərə çarpdırır. Bu isə, heç şübhəsiz, öz növbəsində, ölkəmizdə yüksək ixtisaslı mütəxəssis hazırlığının keyfiyyətinin daha da artırılmasına ciddi təkan verəcək. Xüsusən, Prezidentin "Azərbaycan Respublikasının ali məktəblərində Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 14 fevral tarixli Fərmanı bu məsələyə də yenidən qayıtmağı və Prezident təqaüdünün mövcud 180 manatdan 210 manata çatdırılması yüksək istedadlı tələbələrə əlavə qayğının göstərildiyini nəzərə çarpdırır. Bu, həm də respublikamızda Prezident təqaüdlü tələbələrin və məzunların reytinqinin yüksəldilməsinə də meydan açacaq. Eyni zamanda, Prezident Sərəncamına uyğun olaraq, təqaüdlərin artırılması ödənişli əsaslarla oxuyan tələbələri də əhatə edəcək. Bu da, ölkəmizdə özəl ali təhsil sektorunun da inkişaf etdirilməsinə, təhsilin bu sektorunda təhsil alan tələbələrin də normal ali təhsil almalarına stimul verəcək. Sərəncamda peşə məktəbi müdavimlərinin də nəzərdə tutulması son illərdə özünün yenidən inkişafına başlamış peşə təhsilinə marağı bir qədər də artırmağa xidmət edəcək. "Tələbə təqaüdləri" faktorunun dövlət siyasətinin diqqət mərkəzinə çəkilməsi, təhsil kredit fondu yaradılması məsələsini yenidən gündəmə gətirir. Məlum olduğu kimi, həmin istiqamətdə artıq ilk addımlar atılıb. Təhsil Nazirliyi xətti ilə yaradılmış "Maarifçi" təhsil kredit mərkəzi 2016-cı ildən ödənişli əsaslarla oxuyan tələbələrə kiçik faizlə uzunmüddətli kreditlərin verilməsini həyata keçirməkdədir. Maarifçi" təhsil kredit mərkəzi, hələlik, ölkəmizdə fəaliyyət göstərən 14 ali məktəbin ayırdığı müəyyən bir maliyyə vəsaiti hesabına fəaliyyət göstərdiyi üçün ehtiyacı olan tələbələrin yalnız az bir qismini əhatə edə bilmişdi. Bizdə olan məlumata görə, bu vaxtadək iki yüz nəfərdən bir qədər artıq tələbə kredit fondundan faydalana bilib. Nədənsə, ölkəmizin sahibkarları bu cəlbedici sahəyə maraq göstərmirlər. Təhsil kredit fondu ilə əlaqəli işləmək bir qədər uzun vaxt tələb edən məsələ olmasına baxmayaraq, dünyada sərfəli biznes sahələrindən biri hesab olunur. Həm də nəzərə almaq lazımdır ki, ehtiyacı olan tələbələrin təhsilini davam etdirməsinə və başa çatdırılmasına qoyulan maliyyə vəsaiti nəticə etibarilə ölkəmizin gələcəyinə yatırılmış yatırım olduğu üçün maddi qazancdan çox mənəvi borc kimi də mühüm əhəmiyyətə malikdir. Düşünürəm ki, sahibkarlar ölkə gəncliyi üçün əhəmiyyətli olan bu sahəyə diqqət yetirəcəklər.

Həmçinin, Azərbaycan Respublikasının Milli Məclisində "Təhsil kreditləri haqqında" xüsusi Qanunun hazırlanmasına təşəbbüslər göstərilib, hətta müəyyən Qanun layihəsi də hazırlanıb. Qanun layihələrini, yalnız ilkin kapital qoyuluşu məsələsində, mövcud olan problemə görə gündəmə gətirmək mümkün olmayıb. Ümid edirik ki, Azərbaycan Prezidentinin tələbə gəncliyinə göstərdiyi müstəsna qayğıdan sonra sahibkarlar mühitində də bu istiqamətdə canlanma baş verəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doktorantların, magistrlərin və tələbələrin təqaüdlərinin artırılması sahəsində atdığı böyük addımlar ölkəmizin tələbə gəncliyinə göstərilmiş böyük qayğının daha bir əməli ifadəsidir. Azərbaycan ziyalıları, təhsil ictimaiyyəti, çoxminli tələbələr - ölkəmizin yeni gənc nəsli Möhtərəm Prezidentimizin müstəqil dövlətimizin daha parlaq gələcəyi naminə tələbə gənclərə göstərdiyi qayğını yüksək qiymətləndirir və dövlət başçısının respublikamızın daha böyük inkişafı üçün atdığı addımları xalqımız sabahına hesablanmış, düşünülmüş və məqsədyönlü tarixi qərarlar kimi qəbul edirlər. Bütün bunlar həm də tələbələrin üzərinə böyük vəzifələr qoyur. İnanırıq ki, tələbələrimiz daha səylə oxuyaraq, müstəqil Azərbaycan dövlətinin ümidlərini doğrultmaq, ölkəmiz üçün yüksək hazırlıqlı, vətənpərvər kadr potensialına çevrilmək üçün var qüvvə ilə çalışacaqlar,



**İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik**

## Azərbaycan Dillər Universitetinin tələbələri Cocuq Mərcanlıda pedaqoji təcrübə keçirlər

Azərbaycan Dillər Universitetinin (ADU) bir qrup tələbəsi Təlimdə innovasiyalar kafedrasının baş müəllimi Anar Rəhimovun rəhbərliyi ilə Cəbrayıl rayon Cocuq Mərcanlı kənd məktəbində pedaqoji təcrübədədirlər.

Fevralın 19-da pedaqoji təcrübə rəhbəri və təcrübəçi müəllimlər məktəb kollektivinə və şagirdlərə təqdim edilib. Məktəbin direktoru Zamin Həziyev pedaqoji təcrübənin işğaldan azad olmuş Cocuq Mərcanlı kəndində təşkil edilməsini uğurlu seçim və tarixi hadisə adlandırıb. Buna görə Azərbaycan Dillər Universitetinin rəhbərliyinə təşəkkür edən direktor ümidvar olduğunu bildirib ki, xüsusi həssas bölgədə pedaqoji təcrübə keçən tələbələrin yaddaşında bu günlər hər zaman xoş xatirə kimi qalacaq.

ADU kollektivinin Cocuq Mərcanlı kənd məktəbinə gəlişi böyük sevinclə qarşılanıb. İlk dərslərdən sonra şagirdlər təcrübəçilərə isti münasibət və böyük maraq göstəriblər.

Təcrübə rəhbəri Anar Rəhimov öz növbəsində məktəb kollektivinə ADU rəhbərliyinin salamlarını çatdırıb, layihənin ideyasının ADU-nun rektoru akademik Kamal Abdullaya aid olduğunu deyib və əlavə edib ki, düşməndən yenicə azad olunmuş bölgədə belə bir missiyanı həyata keçirmək şərəfli işdir. Tanışlıqdan sonra isə pedaqoji təcrübə rəhbərinin təşkilatçılığı ilə məktəbin ingilis dili müəllimi və direktoru Zamin Həziyevlə birlikdə dərs təşkil edilib. Məktəbin 9-cu sinif şagirdləri üçün keçirilən dərsin mövzusu "Pollution and it effects" olub. Nümunəvi dərsdə məktəb kollektivi ilə yanaşı ADU-nun pedoqoji təcrübə keçən tələbələri iştirak ediblər. Dərsdə müxtəlif texnoloji və yardımçı vasitələrdən istifadə edilib və bütün bunlar şagirdlərin böyük marağına səbəb olub.



## Eldar Quliyev: "Azərbaycan dövləti ölkəmizin gələcəyi olan gənclərə çox yüksək diqqət və qayğı göstərir

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəyə çıxarılması müasir tələblərə uyğun aparılır". Bu fikri millət vəkili Eldar Quliyev deyərək bildirib ki, gənc nəslin düzgün və müasir tələblərə uyğun yetişdirilməsi hər bir ölkə üçün olduğu kimi müstəqil Azərbaycan Respublikası üçün də ən başlıca məsələdir: "Çünki heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Və bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar".



"Dövlət gənclər siyasətinin müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları tərəfindən həyata keçirilir" fikrini deyən E.Quliyev 2002-ci ildə "Gənclər siyasəti haqqında" qəbul olunan Azərbaycan Respublikasının nanun layihəsində müasir tələblərə uyğun dəyişikliklər edilməsinin zəruri olduğunu bildirib: "Bu da cəmiyyətdə gedən proseslərdən irəli gələn tələblərə tam uyğundur. Bu dəyişikliklərdən real həyatda teztez rast gəldiyimiz yeni anlayışların izahının verilməsini, gənclər siyasətinin məqsəd və prinsiplərinin, gənclər siyasətinin həyata keçirilməsində dövlətin vəzifələri, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı məsələlərinin daha geniş və əhatəli əks olunmasını xüsusi qeyd etmək istəyirəm. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dövləti ölkəmizin gələcəyi olan gənclərə çox yüksək diqqət və qayğı göstərir, onların təhsili, tərbiyəsi, fiziki, mənəvi və əqli inkişafı, sağlamlığının qorunması üçün lazım gələn bütün tədbirləri həyata keçirir və bu tədbirləri daim təkmilləşdirmək əzmindədir".

*Rəfiqə*

# YAP Pirallahı rayon təşkilatının hesabat yığıncağı keçirilib






Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrinə dair hesabat yığıncağı keçirilib. Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı aparatının əməkdaşları, idarə heyəti, şura üzvləri və ərazi ilk partiya təşkilatlarının sədrlərinin iştirakı ilə Pirallahı qəsəbəsində yerləşən 168 №-li orta məktəbin iclas zalında keçirilən hesabat yığıncağını açıq elan edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov gündəlikdə duran məsələləri yığıncaq iştirakçılarının nəzərinə çatdırıb. Tədbir iştirakçılarının yekdil qərarı ilə hesabat yığıncağının gündəliyi təsdiq olunub. İlk öncə, hesabat çıxışı ilə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri H.Şikarov 2018-ci ildə görülən işlərdən danışaraq, qeyd etdi ki, hesabat dövrü ərzində, təşkilatın fəaliyyəti məhsuldar olmuş və bir sıra uğurlu nəticələrlə yadda qalıb. "11 aprel 2018-ci il - prezident seçkilərində Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürülmüş, Cənab İlham Əliyevin seçkiqabağı təbliğat-təşviqat kampaniyası zamanı Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı üzvlərinin yüksək fəallığı bir daha yığıncaq iştirakçılarının diqqətinə çatdırıldı. 2018-ci ilin aprel-may aylarında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı keçirilən silsilə tədbirlər barədə məlumat verildi" deyə H.Şikarov bildirib.

Hesabat çıxışına münasibət bildirən yığıncaq iştirakçıları 2018-ci ildə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının fəaliyyətini qənaətbəxş hesab ediblər. Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının idarə heyətinin üzvləri Əli Kərimov, Ələddin Muxtarov, Sevda Alxasova, Mirdaməd İmanov, Fazil Məhəmmədov, Yaqub Hüseynov, Bəxtiyar Balakişiyev və başqaları çıxış edərək, rayonun ictimai-siyasi həyatında Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının rolunu qeyd ediblər.

2018-ci ildə partiya sıralarına qəbul edilmiş yeni üzvlərlə bağlı çıxışı zamanı Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov, fəallığı ilə seçilən ərazi ilk partiya təşkilatlarının adlarını qeyd edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzu etdi. Bu gün partiya sıralarına perspektivli, gənc kadrların cəlb olunmasına üstünlük verilməsini ərazi ilk partiya təşkilatlarının sədrlərinin diqqətinə çatdırıb.

Tədbir partiya sıralarına yeni qəbul edilmiş üzvlərə partiyanın üzvlük vəsiqələrinin təqdim edilməsi və 2018-ci ildə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirak etmiş partiya fəallarının Fəxri Fərmanla təltif olunmaları ilə başa çatıb.

***Rövşən RƏSULOV***

# BSU-nun "Kaspi" komandası Çelyabinskdən uğurla qayıtdı




***Bu günlərdə Çelyabinsk Dövlət Universitetində BRİKS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası) və Avrasiya İqtisadi İttifaqı ölkələrinin diplomatiya və beynəlxalq əlaqələri sahəsində məktəbli və şagirdlər arasında yaradıcılıq yarışı - III Beynəlxalq Diplomatik Oyunlarının final yarışı təşkil olunub. Oyunlar A.M.Qorçakova adına İctimai Diplomatiyaya Dəstək Fondunun yardımı ilə Məzunlar Assosiyasiyası və Çelyabinsk Universitetinin Avrasiya və Şərq fakültəsinin təşkilatçılığı ilə baş tutub.***

Layihəyə "Çelyabinsk vilayəti hökumətinin dəstəyi ilə" statusu verilib. Oyunlarda 5 MDB ölkəsindən 46 komanda iştirak edib. Onlardan 35-i Rusiya Federasiyasını, 11-i isə digər xarici ölkələri təmsil edib.

III diplomatik oyunlarda respublikamızı təmsil edən yeganə komanda Bakı Slavyan Universitetinin "Kaspi" komandası olub. Finalda 3-cü yeri qazanan komandamızın üzvləri diplom və medallarla mükafatlandırılıblar.

Diplomatik oyunlara 8 mindən çox adam tamaşa edib. Finalçılarımızı tamaşa zalında azarkeşlərlə bərabər, Çelyabinskdən min kilometrlərlə uzaqda yaşayan insanlar da dəstəkləyiblər.

Qeyd edək ki, BSU-nun "Kaspi" komandası "Ən yaxşı tələbə işi" nominasiyasında Ermənistan komandasını on üç yer geridə qoyaraq, ilk beşliyə düşüb, final mərhələsinə vəsiqə qazanmışdı.

***ZÜMRÜD***

# Dövlət Sərhəd Xidməti bir sıra uğurlu əməliyyatlar keçirib



Son günlərdə dövlət sərhədinin etibarlı mühafizəsi, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Dövlət Sərhəd Xidməti tərəfindən bir sıra uğurlu əməliyyatlar keçirilib, narkotik vasitələrin dövlət sərhədindən qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınıb. Dövlət Sərhəd Xidməti Mətbuat Mərkəzindən SİA-ya verilən məlumata görə, 7 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Yardımlı rayonunun ərazisində dövlət sərhədindən narkotik vasitələrin qeyri-qanuni gətirilməsi cəhdinin qarşısı alınarkən Masallı rayon sakini 1994-cü il təvəllüdlü Nəzirli Cavad Fikrət oğlu saxlanılıb.

Saxlanılan şəxsin üzərinə baxış keçirilərkən 1 kq 720 qr "heroin", 2763 manat və 3 ədəd mobil telefon aşkar olunaraq götürülüb. Həmin cinayətin digər iştirakçısı təqibdən yayınaraq meşə massivində gizlənməyə müvəffəq olub. Qeyd olunan şəxsin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir. 18 fevral tarixində Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Lənkəran rayonunun Vel kəndinin ərazisində xidmət aparan sahil nəzarət bölməsinin əməkdaşları tərəfindən sahildə kolluqların arasında gizlədilmiş halda 1 kq 85 qr "heroin" aşkarlanaraq götürülüb. Qeyd olunan faktlar üzrə müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Seçkilərdən sonra Ermənistana xarici investisiya niyə cəlb olunmur?




Ermənistana məxsus "Jamanak" qəzeti yazır ki, parlament seçkilərinin geridə qalmasına baxmayaraq ölkəyə hələ də nə yerli, nə də xarici investisiya cəlb olunmayıb. Üstəlik, keçmişdə mövcud olan proqramlar belə məlum olmayan müddət üçün təxirə salınıb. Səbəb investorların inamsızlığı və hakimiyyətin investorlara etinasız yanaşmaları göstərilir. Qəzet yazır ki, çoxları mövcud durumdan gileylənirlər. Gileylənirlər ki, əvvəllər hansısa məsələ, hansısa iş məmura rüşvət verməklə həll oluna bildiyi halda indi mənzərə tamamilə fərqlidir və hazırda nə rüşvəti alırlar, nə də işlə məşğul olurlar.

***İnam Hacıyev***

# Erməni deqradasiyası

## Ermənistan hakimiyyəti Paşinyanın uydurduğu azadlığı satır

***Eks-prezidentin qardaşı Aleksand Sarqsyan dövlətə 18,5 milyon dollar köçürüb. Özü də təmənnasız. Bu barədə Ermənistana məxsus "1in.am" saytı məlumat yayımlayıb və məlumatda o da qeyd olunub ki, bu sarı mətbuatın yayımladığı sensasiya, ya da şayiə deyil, hakimiyyət aparatından kütləvi informasiya vasitələrindən birinə göndərilən yazılı şəkildə məlumatdır.***

Maraqlıdır, heç bir məhkəmə araşdırması, heç bir məhkəmə prosesi olmadan, qüvvəyə minmiş qanuni hökm olmadan müttəhim hansı əsasa görə bu qədər məbləği dövlətə köçürür? Ermənistana məxsus mətbuat səhifələri belə etiraf edir ki, bu və bir sıra digər məsələlər hadisələrin qeyri-qanuniliyini və şübhəliliyini təsdiq edir. Eyni zamanda, çox maraqlıdır, hansı metodikaya əsasən, hansı təyinetmə üsuluna və kimin qərarı ilə müəyyənləşdirilib ki, Aleksand Sarqsyan, məhz həmin məbləği hökumətə verməlidir? Niyə bu məbləğ 28,5, yaxud 8,5 milyon deyil, məhz 18,5 milyondur və bu rəqəmi kim müəyyənləşdirir?

### Ermənistanda qanunsuz əməllərə görə hökumətə müəyyən məbləğdə pul ödəməklə cəzadan yaxa qurtarmaq kimi bir presedent formalaşıb

Ödənilən məbləğ, əslində, müzakirə mövzusu deyil, onun hansı hüquqi aktla təyin olunmasıdır. Hansı normalar bu məbləği təsdiq edə bilir və bu normalar kimlər tərəfindən müəyyənləşdirilir? Heç bir məhkəmə prosesi olmyıbsa, müttəhimə qarşı qanuni akt nəzərdə tutulmayıbsa, cəza təyin edilməyibsə, A.Sarqsyan niyə dövlətə ödəmə, köçürmə edir və köçürüləcək vəsaitin bu məbləğdə olmasına kim qərar verir? Məhkəmə olmadan, hüquqi akt olmadan, lap elə inzibati cəza tədbirinin təyin edilməsi, müttəhimə bir növ cərimə ödətmək hansı demokratiya, hansı azadlıqdır?

Ola bilsin, hakimiyyətə yaxın olan erməni hüquqşünaslar mövcud hala görə, hansısa qeyri-dəqiq izahatlar tapa da bilərlər. Amma başda Paşinyan olmaqla, bütün ermənilər dərk etməlidirlər ki, bu məsələnin təkcə hüquqi və qanuni tərəflərinin olub-olmaması problemin kökü deyil. Ermənistanda yaranan əsl problem, ondan ibarətdir ki, hazırda, faktiki olaraq, nə zamansa, törədilmiş qeyri-qanuni əməllərə görə,



hökumətə müəyyən məbləğdə pul ödəməklə cəzadan yaxa qurtarmaq kimi bir presedent formalaşıb. Daha dəqiq desək, belə çıxır ki, hazırda Ermənistanda nə vaxtsa törədilən cinayətə, qanunsuz əməllərə görə hansısa miqdarda vəsait və ya pul ödəyərək cəzadan yaxa qurtarmaq, bir sözlə, qanundan yayınmaq mümkündür.

### Ermənistanda yeni hakimiyyət iddia etdiyi dırnaqarası azadlığı və demokratiyanı satır

Bəli, artıq məhkəmə hökmləri də hökumətin ixtiyarındadır. Hüquqi məsələlər belə hökumət tərəfindən diktə olunur və prosedurlar da yeni hakimiyyət tərəfindən təyin edilir. Nə ədalət məhkəmsi, nə qanun, nə də qanunvericiliyin tələbləri hesaba alınmır. Bu mənzərə Paşinyanın Ermənistana gətirmək istədiyi dırnaqarası azadlıq və əldəqayırma demokratiyadır. Yeni Ermənistan deyilən dövlətin əsl siması, məhz budur.

Digər tərəfdən, Aleksand Sarqsyanın dövlətə 18,5 milyon dollar köçürməsindən, ortaya müəyyən suallar da çıxır. Hardandır Sarqsyanda bu qədər pul? Hansı yollarla əldə edilib? Bu vəsait heç də az məbləğ deyil və bu vəsait hansı mənbələrdən əldə edilib? Dövlətə köçürülən külli miqdarda pulun əldə edilməsi barədə qanuni sənədlər varmı? Yaxud sənədlərdə öz əksini tapırmı?

Göründüyü kimi, Ermənistanda yeni hakimiyyət iddia etdiyi dırnaqarası azadlığı və demokratiyanı satır. Paşinyanın pafosla dünyaya göstərmək istədiyi yeni Ermənistan çox gülünc bir durumdadır. Bu durum erməni deqradasiyasıdır. Bu deqradasiyanı öz populist çıxışları ilə bir küçə nümayişçisi gətirib. Hakimiyyətdən, idarəetmədən və ümumiyyətlə, idarəçilikdən xəbəri olmayan küçə nümayişçisi. Hərçənd, idarəçilik, dövlət idarəetməsi baxımından heç bir təcrübəsi olmayan küçə nümayişçisinin gətirəcəyi "azadlıq", "demokratiya" bundan artıq ola da bilməzdi. Məsələ burasındadır ki, artıq bu gülünc vəziyyəti, erməni deqradasiyasını indi bütün Ermənistan ictimaiyyəti çox gözəl başa düşür və hətta kütləvi informasiya vasitələrində belə etiraf olunur.

***İnam HACIYEV***

# "Nar" 45-dən çox bölgəni 4G şəbəkəsi ilə təmin edib




Ölkənin ən gənc mobil operatoru olan "Nar" yüksəkkeyfiyyətli 4G şəbəkəsini bütün ölkə ərazisində genişləndirməyə davam edir. Baza stansiyalarının sayını sürətlə artıran mobil operator hazırda ölkədə ən geniş şəbəkələrindən birinə malikdir. Aparılan təkmilləşmə işlərinin nəticəsi olaraq, "Nar" son 3 ayda ölkə ərazisində 355-dən çox 4G, 35-dən çox 3G texnologiyası ilə təmin olunmuş mobil baza stansiyasını istifadəyə verib. Hazırda mobil operatorun 4G baza stansiyalarının sayı 1700-ü, 3G baza stansiyalarının sayı isə 2600-ü ötüb.

Bölgələrə xüsusi diqqətilə seçilən mobil operator 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, regionlarda, şəhər və rayon mərkəzlərində də təqdim edir. Hazırda 45-dan çox bölgə mərkəzi 4G şəbəkəsi ilə təmin edilib. "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Mobil operatorun 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür.

Qeyd edək ki, "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 4G keyfiyyəti ilə yanaşı, "Nar"-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır. Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.



**Təhmasib Novruzov**

## *XOCALIya gedən yol...*

Bir şəhərə, ya bir kəndə, bir sözlə, hər hansı bəlli yerə gedən yol, həqiqi mənasında anlaşılandı, bəsitdi. Yəni elə Xocalı kimi tanıdığımız qədim mədəniyyətə malik türk elatına gedən yol da sadədi, bəsitdi. İşğal altında olan Xaçın körpüsünü keçdinsə, oradan Ağdama, Ağdamdan da Əsgəranı keçməklə, çatırsan həmin şəhərə. Amma bu gün, yolun həqiqi mənasından deyil, məcazi mənasından danışmağa məhkumuq. Söhbət "XOCALI VƏHŞƏTİ"nə aparan yoldan gedəcək.

Bu gün təkcə Azərbaycana və azərbaycanlılara deyil, bütün dünyaya 1992-ci il fevralın 26-da Xocalıda baş verən, tarixdə misli-bərabəri olmayan vəhşiliklərlə həyata keçirilən qətliam aktı məlumdur. Görsə də, özünü korluğa, eşitsə də, karlığa vuran dünya güclərinin görməzdən gəlməsinə baxmayaraq, bu, bəşəriyyətə, insanlığa qarşı yönəlmiş cinayətdir və yəqin ki, zamanı gələcək, bu vəhşiliyin müəllifləri onun haylar və onların havadarları bəşəriyyət qarşısında cavab verəcəklər. Mənim məqsədim karkor dünyanın bu vandalizmə münasibəti haqqında müzakirə açmaq deyil. Məqsədim həmin dövrə yüngül bir ekskurs etmək, bu vəhşiliyə aparan yoldan söz açmaqdır. Çünki zaman-zaman xalqımızın başına gətirilən oyunlarda baş günahkarlar marığa yatan düşmənlər olubsa, onların niyyətlərinin reallaşmasına bilərəkdən, ya bilməyərəkdən şərait yaradanlar isə, nə yazıqlar ki, öz içimizdən olub, Nadir şahın ölümündən sonra mənəm-mənəm deyən xanların bütöv bir məmləkəti xırda hissələrə bölməsindən çar Rusiyası necə yararlanmışdısa, XX əsrin sonunda da ermənilər və onların havadarları hakimiyyət hərislərinin yenicə müstəqillik əldə etmiş bir məmləkətdə yaratdıqları xaosdan eləcə yararlandılar. Vəzifə, kreslo həsrəti ilə alışıb-yanan küçə-meydan müxalifəti ilə, əldə etdiyi hakimiyyət kreslosundan qopmağı faciə kimi qəbul edən o dövrün iqtidarının qeyri-antoqanist ziddiyyətləri nəticəsində, ölkədə yaranan xaos düşmənin istəyini keçirməsi üçün münbit şərait yaratdı və nəticədə pik nöqtəsi Xocalı qətliamı olan neçə-neçə faciələr yazdı tariximizə. Mətbuatdan və efirlərdən dəfələrlə səsləndiyi kimi, "üç-dörd kəndi ermənilərə verib Ayaz Mütəllibovu istefaya göndərmək" kimi iyrənc siyasi kurs götürən o dövrün (elə həm də bu günün) müxalifətinin vəzifəyə, kresloya Vətən torpaqlarını qurban verməyə hazır olması, hesab edirəm ki, bizim üçün daha ağrılı faciədir. Eynilə, əldə etdiyi hakimiyyət kreslosunu qorumaq naminə daha düşünülmüş və qətiyyətli addımlar atmaq əvəzinə, Kremlin yağlı vədlərinə inanıb, on minlərlə əhalini erməni terrorçularının və məhz Kremldən idarə olunan 366-cı alayın qarşısında köməksiz qoyan o dövrün iqtidarının siyasi naşılığı, səriştəsizliyi, bacarıqsızlığı hakimiyyətə can atan hər kəsin özünə yaxşı-yaxşı baxması, bacarığını, qabiliyyətini saf-çürük etməsi (əlbəttə, əgər həqiqətən, Vətənə və xalqa xidmət arzusu ilə hakimiyyətə can atırsa) üçün ən gərəkli nümunədi. Məşhur bir deyim var: "Tanrı məni dostumdan qorusun, düşmənimdən özüm qorunaram!" Kiçik düzəlişlə bu deyimi belə dəyişsək, fikrimiz oxucuya daha da aydın olar: " Tanrı xalqımızı içimizdəki sapı özümüzdən olan baltalardan qorusun, düşmənlərdən özümüz qorunarıq!" Milyon dəfə təəssüf ki, tarixin bu qədər ağır dərslərindən nəticə çıxarmayanlar, bəlkə də nəticə çıxarmaq istəməyənlər, hələ də ölkəni xaosa çəkmək istəyən qüvvələrin dəyirmanlarına su daşımaqla məşğuldurlar. Görəsən, daha neçə, hansı böyüklükdə faciələr yaşamalıyıq ki, ağıllana bilək, atdığımız addımların ümummilli mənafelər baxımından bizə nə vəd etdiyini hesablamağı bacaraq!..

Yazımı çapa göndərmək istədiyim zaman "fasebook" səhifəsində 1988-ci ildən Azərbaycanda gedən siyasi proseslərin fəal iştrakçılarından biri, əsl vətənpərvər ziyalı, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovun, ölkədə baş verən indiki prosesləri bir dövlət məmuru deyil, əsl vətəndaşlıqlıq mövqeyindən dəqiq və obyektiv təhlil edən yazısını oxudum. Düşünürəm ki, həmin yazını oxumaq və dövlətçiliyimiz, milli mənafelərimiz naminə ciddi düşünmək kifayətdir ki, mənim yazımda vurğuladığım mətləb hər bir oxucuya aydın olsun. Hələ oxumayan varsa, bu günümüzün gerçəkliklərini anlamaqda çətinlik çəkənlərə mayak rolu oynaya biləcək həmin yazını diqqətlə oxumağı tövsiyə edərdim...

# Əli Kərimli narahatdır - siyasi ekstaza və mitinq transına düşüb

## *Onun birdən-birə iştahaya düşməsinin isə səbəbi var*

***“Milli Şura”nın növbəti mitinq transına düşməsi və bu ətrafda spekulyasiya cəhdlərinin növbəti ifşası, ilk olaraq, bu cür düşünməyə və qənaətə gəlməyə zəmin yaradır ki, AXCP sədri Əli Kərimli və onun əlaltıları dövlət rəhbərliyinin apardığı inqilabi islahatlardan ciddi şəkildə təşvişə düşüblər. Daha doğrusu, əldə edilən uğurları, xüsusilə, sosialyönümlü islahat addımlarını öz adlarına, yəni dağıdıcı müxalifətin daha öncələr keçirilmiş 2-3 minlik mitinqləri adına çıxarmağa çalışan AXCP-”Milli Şura” cütlüyü və bu cütlüyün dirijoru Ə.Kərimlinin bu və ya digər şəkillərdə uğursuz manipulyasiyalarını sürdürməkdə davam edir. Heç bir ideya və sivil mübarizə qaydalarına söykənməyənlərin, sağlam təfəkkürə malik siyasi təşəbbüsləri olmayanların birdən-birə bu cür iştahaya düşmələrinin isə səbəbi var - Azərbaycan xalqının rifahı üçün yürüdülən siyasətə kölgə salmaq, bu vasitə ilə atılan addımlara sahiblənmək.***



### AXCP - “Milli Şura” cütlüyü hakimiyyətin inqilabi islahatlarından güclü təlaş keçirir və uğurları öz adlarına çıxarmağa cəhd edir

Əlbəttə ki, bunun üçün, bilavasitə Ə.Kərimliyə xarici ağalarından tapşırıqlar verilib. O cümlədən, Avropadakı milli xəyanətkarlar yığını - söyüş müxalifəti deyilən küfrbazlar toplumu sözügedən “ideyanı” reallaşdırmaqdan ötrü mənəvi terrorlarını davam etdirməkdədirlər.

Bu arada, Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun “Facebook” sosial şəbəkəsi vasitəsilə ilə yazdığı əsaslı məqalədən də gəlinən nəticə budur ki, “Milli Şura” əhalinin rifahının yüksəldilməsi ilə bağlı hakimiyyətin atacağı addımlara dair sızan məlumatları əlində bayraq edib, siyasi xal qazanmağa cəhd göstərir, yanvarın 19-da keçirilmiş uğursuz mitinqinin “qələbəsi” kimi sərgiləyirlər. Siyasi ekstaz və mitinq transına düşən Ə.Kərimli indi elə sanır ki, guya onun növbəti mitinqinə “çox adam” (?!- R.R.) qatılacaq.

### İnsanlara “mitinqə gəlin” deyən Əli Kərimli ailəsinə də bu çağırışları edirmi?

Misal üçün, bu gün bir çoxları haqlı olaraq sual edirlər ki, mitinqlərdə iştirak etmək üçün xanımlara səslənən AXCP sədrinin öz həyat yoldaşı onun aksiyalarına niyə qatılmır? Hansı səbəbdən, Ə.Kərimli xarici ölkələrdə yağ-bal içində saxladığı oğlu Türkel Kərimlini keçirdiyi aksiyalarına ya dəvət etmir, ya da mitinqlərə qatılmamasına göz yumur? O, hələ də bu sualları cavablandırmayıb, nədənsə...

Amma başqalarına ailəliklə “mitinqlərimə qatılın” çağırışları edən AXCP sədri həyasızcasına dövlətin yürütdüyü uğurlu siyasəti mənimsəməyə cəhdlər göstərir.

### Nə Avropadakı “söyüş müxalifəti”, nə də onların havadarları Azərbaycanda mövcud sabitliyi, reallaşdırılan inqilabi islahatların qarşısını ala bilməyəcəklər

Xalqın gözü tərəzidir və bilən, yaxşı bilir ki, Ə.Kərimli siyasi manipulyasiya edərək, təlaşını bu vasitə ilə gizlədir. Yəni o və ətrafı hakimiyyətin atacağı addımlara dair sızan məlumatlarla bağlı kampaniya təşkil edib məsələni “öz əməyinin nəticəsi” kimi göstərməyə çalışır. Ancaq fakt budur ki, onun növbəti cəhdləri də istədiyi nəticəni verməməklə yanaşı, həm də siyasi ölümünü daha da sürətləndirəcək. Nə Avropadakı “söyüş müxalifəti”, nə də onların havadarları Azərbaycanda mövcud sabitliyi, reallaşdırılan inqilabi islahatların qarşısını ala bilməyəcəklər. Xüsusilə, siyasi ekstaza və mitinq transına düşərək, sərsəm ideyaları ilə sosial şəbəkələrdə küncbucaqlara qaçan AXCP sədri Ə.Kərimli buna 100% əmin ola bilər.

***Rövşən RƏSULOV***

---

# Düşmən yalı ilə bəslənənlər sonda ifşa olunurlar



**RƏFİQƏ**

Bu günə kimi hər gün bir cinayətkar, Vətən xaini peyda olur, sonra da adını qoyurlar “insan hüquqları pozulur, nə bilim söz azadlığı yoxdur”, və digər şər, böhtanlar. Başlayırlar bu cinayətkarın müdafiəsinə. Özü də kimlər müdafiə edir? Əlbəttə ki, bəllidir - xarici qüvvələrə nökərçilik edən, hər şeylərini qrantlara satan erməni qulbeçələrin iblis xislətçisi, əxlaqsızı, mənəviyyatsızı -Əli Kərimli kimilər. Qəribəsi də odur ki, qranta görə qaşınmayan yerdən qan çıxarmağa çalışan AXCP sədrini bu gün Azərbaycanın əldə etdiyi uğur yaman qıcıqlandırır. Elə zənn edir ki, şər-böhtan deməklə, özündə bir təsəlli tapacaq, ancaq xəstə mafiozdan bundan savayı, nə gözləmək olar? Buna da nail olmadıqda, əl atır mitinq şousuna. Mitinq şousu, ona görə deyirəm ki, 5-10 nəfər mitinqə gələn elə Ə.Kərimlinin özünü saymırlar, ağızlarına gələni üzünə deyirlər. Ə.Kərimli də, o qədər üzü tüpürcəkli olub ki, bir üzünü silib, o biri üzünü çevirir. Bax, budur abırsızlıq və həyasızdıq. Çünki Ə.Kərimli erməni sevgisindən erməniləşən məxluqudur. Ancaq onun kimiələr də çoxdur. Rüstəmi, Əlisi, İsası, Əkrəmi, Gültəkini, Leylası, Xədicəsi, Vidadisi, Teymurxanı, Turalı və ... kimi satqın, əxlaqsız erməxislətli mənəviyyatsızları xalqımız yaxşı görür və onların məqsədlərini də bilir. Bu bədbəxtlər anlamalıdırlar ki, Azərbaycana batmaq müşkül məsələdir! Bunu Avropadakılar və onlara nökərçilik edən satqın müxalifət də bilir. Bu gün bu satqınlar və ölkəmizin uğurlarına qısqavnclıqla yanaşan avropalı deputatlar da qanmağa məhkumdurlar ki, Azərbaycan qədər zəif deyil ki, vətəndaşlarımız siyasi mövqeyinə görə şərlənib həbs edilsin. Belədir, ya yox, cənab misterlər?

Anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib, özgə yalı ilə yallanan Ə.Kərimli və onun kimilər unutmasınlar ki, heç nəyə nail ola bilməyəcəklər və gec-tez bu yalan və böhtanlar sonda ifşa olunacaq. Çünki Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənlər heç vaxt xalqın qınağından qurtula bilməyəcəklər. Necə deyərlər, qır qazanında yanacaqlar.

---

# Erməni yanlısı Leyla Yunusun qarğa burnu indi nə eşələyir?

## *Çingiz Qənizadə: “Bütün ömrü boyu anti-Azərbaycan fəaliyyəti ilə tanınan Leyla Yunus yenə də öz apmluasındadır”*

***“Sülh və Demokratiya İnstitutu”nun rəhbəri Leyla Yunus yenə də köhnə ampulasındadır. Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının aktiv iştirakçılarından olan “Amnestye İnternational”ın “siyasi məhbus”la bağlı qərəzli çağırışına səs verən L.Yunus vətən xaini və satqın ermənilərlə yenə də iş birliyi qurduğunu nümayiş etdirdi. Bu, heç də təəccüb doğurmur. Çünki L.Yunusun kim olduğunu, hansı əməllərə sahiblik etdiyini və hansı dairələrə xidmət etdiyini xatırlatmağa ehtiyac yoxdur.***

Onun daxilində yaşadığı, çörəyini yediyi dövlətə və xalqa qarşı patoloji nifrət formalaşıbdır. Eyni zamanda, L.Yunus müxtəlif vaxtlarda başqa anti-Azərbaycan layihələrinə imza atdığı da bəllidir. Məsələn, özünü “hüquq müdafiəçisi” kimi qələmə verən bu



şəxs Böyük Britaniyanın Azərbaycan və Ermənistandakı səfirliklərinin dəstəyi ilə ermənilərlə birgə sayt da yaratdı. Saytın materialları ilə tanış olduqda, hansı məqsədə xidmət etdiyini müəyyən etmək çətin deyil. Bu layihə hazırda davam etdirilməkdədir.

### Erməni xislətli satqın Leyla Yunus indi nə istəyir?

Xüsusilə, son günlərdə L.Yunuç mətbuata verdiyi müsahibələrində Azərbaycanın son 15 il ərzindəki uğurlarına qısqanclıqla yanaşaraq, öz çirkin niyyətlərini açıq-aydın göstərməkdədir. O zaman sual olunur: görəsən, bu erməniləşmiş Leyla Yunus bu addımları ilə nəyə nail olmaq istəyir?

Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin üzvü Çingiz Qənizadə bildirib ki, L.Yunusun məqsədi bəllidir və o, Azərbaycanla bağlılığı olmayan bir adamdır: “O, heç vaxt Azərbaycan dövlətini, hakimiyyətini və xalqını qəbul etməyib. L.Yunus Azərbaycanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, heç bir halda, dövləti və onun rəsmilərini sevən bir insan olmayıb. Onun yeganə məqsədi varlanmaq olub. Bunu da qeyri-hökumət təşkilatı olaraq, xaricdən müəyyən maliyyə vəsaiti almaqla, onların sifarişi əsasında Azərbaycana, onun siyasi rəhbərliyinə və hakimiyyət qollarına böhtan atmaqla həyata keçirib. Beləliklə də, həmin maliyyə mənbələrini öz məqsədi üçün istifadə edib. Bilirik ki, hələ burada olarkən, xaricdən aldığı qrantlar hesabına bir neçə mənzil və ofis alıb. Bu faktı vaxtilə digər vətəndaş cəmiyyəti institutlarının rəhbərləri də qeyd etmişdilər”.

Deputat qeyd edib ki, Azərbaycan-Rusiya münasibətlərinin dostluq istiqamətində artan inkişafı Ermənistanı narahat etdiyi kimi, erməniləri sevən L.Yunus kimilərini də narahat etməyə başlayıb: “Onlar erməni dostlarının, qardaşlarının siyasi xəttinə uyğun olaraq, Azərbaycanla Rusiya arasında hansısa bir formada şübhə toxumu səpmək və nifaq salmaq yolunu tutublar. İndi də L.Yunus Rusiyanın hansısa bir mətbuat orqanında Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin, mətbuatın, qeyri-hökumət təşkilatının olmaması ilə bağlı yalan, iftira və böhtan dolu fikirlərini bildirir. Məqsəd aydındır: hədəf Azərbaycan dövlətidir, siyasi hakimiyyətidir, xalqımızdır. Çünki Azərbaycan siyasi hakimiyyətini xalq formalaşdırır. Bu adamın yeganə məqsədi Azərbaycan dövləti və xalqına qarşı qarayaxma kampaniyasında iştirak etməklə, xaricdən daha çox maliyyə vəsaiti almaq və özünün şəxsi varidatını artırmaqdır”.

***R.HÜSEYNOVA***

# LEYLA ƏLİYEVA-XEYİR ƏMƏLLƏRİN DAVAMÇISI

***Hər hansı sahədə inkişafın, təkamül proseslərinin ardıcıllığı bu proseslərin estafetini müqəddəs bir əmanət kimi qəbul edib gələcəyə doğru aparan şəxsiyyətlərdən asılıdır. Mehriban xanım Əliyevanın yerinə yetirdiyi ululardan miras qalmış müqəddəs və nəcib missiya Azərbaycan və Şimal qonşumuz arasında körpüyə çevrilmişdir.***

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin yerinə yetirdiyi nəcib missiyalardan biri bu ölkədə həyata keçirilən xeyriyyə tədbirləridir. Bununla fondun nümayəndəliyi Rusiyada Azərbaycanın dini-mədəni tolerantlığa malik olması obrazının bərpasına xüsusi diqqət yetirdiyini əyani nümayiş etdirir. Fond Rusiyanın yetim uşaqlar üçün olan internat məktəblərinə yardım göstərir, əlil uşaqlara xeyriyyə aksiyaları keçirir. Bütün bunları nümayəndəlik təkcə federal icra hakimiyyətləri və qanunvericilik hakimiyyəti səviyyəsində deyil, həm də federasiya subyektlərinin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq mühitində edir və bu əməkdaşlıq əlaqələrinin daha da inkişafına səy göstərir. Fondun nümayəndəliyinin rəhbərliyi Sankt-Peterburq, Tver, İvanovo və Tula vilayətlərinin rəhbərliyi ilə səmərəli əlaqələr qurmuşdur. Rusiya hakimiyyətinin və biznesinin digər regional elitası ilə də münasibətlər yaradılmışdır. Bu kontekstdə Azərbaycan diplomatiyasının mövqeyi baxımından, Qarabağ münaqişəsi haqqında məlumatların yayılması kimi çox mühüm məqamı da xatırlatmamaq olmaz. Fondun nümayəndəliyi Azərbaycanın ən yeni tarixinin həm kədərli, həm də təntənəli məqamları ilə əlaqədar genişmiqyaslı aksiyalara, təşkil etdiyi tədbirlərə Rusiya siyasi elitasının nümayəndələrini də dəvət edir. Bütün bunlar isə, həmin tədbirlərdə Rusiya cəmiyyətinin elitar kəsimini təmsil edən ziyalıların da etiraf etdikləri kimi, müstəqil Azərbaycan Respublikasının Rusiya cəmiyyətində pozitiv obrazının yaradılması baxımından son dərəcə müsbət faktlardır. Onların fikrincə, Leyla xanım Əliyevanın təvazökarcasına, siyasiləşdirmədən ölkənin çox yaxşı imicini yaratması, mədəniyyətlə bağlı tədbirlər, konsertlər, sərgilər keçirməsi siyasi xarakter daşımasa da, əslində, böyük siyasi əhəmiyyətə malikdir. Çünki Azərbaycanın Rusiyada imici mədəni bilik vasitəsilə formalaşır. İnsanlar ölkəni hansısa doğru-yanlış stereotiplər prizmasında deyil, ölkəmizin yetirdiyi dahi musiqiçilərin, aktyorların, rejissorların yaratdığı pozitiv təsəvvürlə qəbul edirlər. Fondun Rusiya nümayəndəliyinin federal qəzetlərlə əməkdaşlığı getdikcə genişlənir, Leyla xanım Əliyevanın Rusiya jurnalistlərinin ölkəmizə mətbuat turunu təşkil etməsi də ötən illərin diqqətçəkən faktlarındandır."

Azərbaycan nəşrlərinin Rusiyada geniş yayılmasında da Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi mühüm rol oynamaqdadır. Elə bunun nəticəsidir ki, məşhur Rusiya Dövlət Kitabxanası (keçmiş Lenin adına kitabxana) Heydər Əliyev Fondunun nəşr etdirdiyi Azərbaycan kitabları ilə zənginləşib. Fondun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva kitabxanaya Azərbaycan dilində xeyli kitab hədiyyə edib. Bu kitablar Şərq ədəbiyyatı salonundakı xüsusi Azərbaycan nəşrləri sərgisinə əlavə olunub. Xüsusən, internetin və elektron KİV-in inkişaf etdiyi, bədii ədəbiyyatın arxa plana keçmək təhlükəsi ilə üzləşdiyi indiki vaxtlarda bunlar son dərəcə vacib addımlardır. Bu cür gözəl kitabxanalar sayəsində gənclər kitab oxumağı davam etdirir və həyatda ən böyük bilikləri kitablardan alırlar.

Leyla xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış "AMOR Liqası" çərçivəsində Moskvada təhsil alan azərbaycanlı tələbələr arasında "Nə? Harada? Nə vaxt?" yarışmasının təşkili gənclərin intellektual inkişafına əsaslanan faydalı bir ənənənin əsasını qoymuşdur.

Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin sifarişi ilə əfsanəvi Azərbaycan geoloqu, Sibir neftinin ilk kəşfiyyatçısı Fərman Salmanovun büstünün hazırlanması da Azərbaycanın təbliği baxımından böyük əhəmiyyətə malikdir. Büst üzərində tanınmış heykəltəraş Y.Neyman çalışmışdır. O, Ümummilli Lider Heydər Əliyevin Sankt-Peterburqdakı Qoroxovaya küçəsi, 6 nömrəli evin (Ulu Öndər 1949-1950-ci illərdə burada oxumuşdur) fasadında qoyulmuş barelyefinin də müəllifidir.

Leyla xanım Leninqradın (Sankt-Peterburq) müdafiəsi zamanı həlak olmuş azərbaycanlı döyüşçülərin xatirə lövhəsinin yaradılması təşəbbüsünü də irəli sürmüş, abidənin yaradılması layihəsi Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin hamiliyi altında Leninqrad vilayəti hökumətinin dəstəyi ilə həyata keçirilmişdir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin gördüyü işlər sırasında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə onun adını daşıyan bağın təntənəli açılışı faktını xüsusi qeyd etmək istərdik. Bu, Heydər Əliyev Fondu ilə Sankt-Peterburq administrasiyasının birgə layihəsidir. Fondun nümayəndəliyinin hamiliyi ilə bağda qranitdən nadir skamyalar və Nizaminin əsərlərindən fraqmentlər təsvir olunmuş pannolar qurulmuş, şairin abidəsi bərpa olunmuşdur. Sankt-Peterburq qubernatorunun qərarı ilə bu gözəl bağa Nizami Gəncəvinin adı verilmişdir. Bu bağ Azərbaycan və Rusiya arasında olan dostluğu və yaxşı münasibətləri təcəssüm etdirir.

Samir Mustafayev daha sonra yazır: "Leyla Əliyevanın Azərbaycanı Rusiya sosiomədəni məkanına gənc və müasir ölkə kimi təqdim edən "Bakı" aylıq jurnalını nəşr etdirməsi də, Azərbaycanın təbliğində müstəsna rola malikdir. 2007-ci ildə nəfis tərtibatlı "Bakı" jurnalının təqdimatı Rusiyada mühüm bir mədəniyyət hadisəsi kimi qarşılanmışdır. "Bakı" jurnalının məram və məqsədləri baş redaktor Leyla Əliyevanın bu nəşr haqqında fikirlərində öz əksini tapır: "Biz bu jurnal vasitəsilə şəhərimizin bütün gözəlliklərini və hərarətini oxuculara çatdırmağa çalışmışıq. Bakı deyəndə, gözlərimiz önündə mülayim iqlimli, günəşli bir şəhər, onun zəngin mədəniyyəti və qədim tarixi canlanır. Güman edirəm ki, bu jurnal Azərbaycanla Rusiya arasında dostluğun möhkəmlənməsinə, mədəni dialoqun inkişafına kömək edəcəkdir. Ümidvaram ki, xalqların qarşılıqlı sevgisindən, tarixindən və dostluğundan bəhs edən bu jurnalı hamı məmnuniyyətlə oxuyacaqdır. Bu jurnal siyasi nəşr deyil, burada, əsasən, mədəniyyət, tarix, müxtəlif maraqlı şəxsiyyətlər haqqında söhbət açılır və başlıca vəzifə ondan ibarətdir ki, bu nəşr Azərbaycanı sevən, ölkəmiz haqqında daha çox məlumat əldə etmək istəyən hər kəs üçün maraqlı olsun".

Həqiqətən, fəaliyyətindən qısa müddət keçməsinə rəğmən, "Bakı" jurnalı Azərbaycan və Rusiya arasında mədəni dialoqun inkişafında mühüm rol oynaya bilib. Artıq "Bakı" jurnalı təkcə Rusiyada yox, bütün MDB məkanında, o cümlədən, dünyanın digər bir sıra ölkələrində də kifayət qədər populyardır.

Leyla xanım Əliyevanın fəaliyyətinin əsas istiqamətləindən birini isə Rusiyada yaşayan, təhsil alan azərbaycanlı gənclərlə iş təşkil edir. O, gəncləri Rusiya Federasiyasının ictimai-siyasi həyatında fəal iştirak etməyə, Rusiya cəmiyyətinə daha sıx inteqrasiyaya və bununla bərabər, Azərbaycanın milli mədəniyyətinə qayğıkeşliklə yanaşmağa, onu qoruyub-saxlamağa və yaymağa çağırır. Bu mənada, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri seçilməsi qonşu ölkədə yaşayan azərbaycanlı gənclərin təşkilatlanmasında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Bu təşkilatın təməli 2007-ci il noyabrın 28-də Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyində Azərbaycan diasporu və azərbaycanlı gənclərlə görüşdə qoyulmuş, 2009-cu ildə isə, rəsmən elan edilən qurum Rusiyada yaşayan gənc azərbaycanlıların birlik və bərabərlik arzusundan pərvəriş tapmışdır.

Bu təşkilat gənclərin təkcə Moskvada deyil, həm də müxtəlif regionlarda fəaliyyət göstərən təşəbbüs qruplarını özündə sıx birləşdirib. Leyla Əliyevanın gənc azərbaycanlıları birləşdirməyi və onlara başçılıq etməyi qərara alması, onun həm bir şəxsiyyət kimi, həm də öz xalqının övladı kimi yüksək sosial və vətəndaş məsuliyyətindən xəbər verirdi.

RAGT yarandığı gündən özünü müasir cəmiyyətin işgüzar və lazımlı strukturu kimi təqdim edə bilmişdir. Bu təşkilatda təmsil olunan gənclər Heydər Əliyev Fondunun və onun Rusiya nümayəndəliyinin bütün təşəbbüslərini dəstəkləyir, gənclərlə bağlı müxtəlif layihələrin icrasında öz səylərini əsirgəmirlər. Bununla yanaşı, RAGT nümayəndələri Rusiya tələbələri birliyinə fəal inteqrasiya etməyə çalışır, təhsil aldıqları ali məktəbləri müxtəlif tədbirlərdə uğurla təmsil edirlər. Digər tərəfdən, fondun nümayəndəliyi Rusiya və Azərbaycanın ali məktəbləri arasında əlaqələrin qurulmasına kömək göstərir, Rusiya məktəbliləri və tələbələrinin Azərbaycanla və Azərbaycan gənclərinin Rusiya ilə tanışlığı formatında mədəni mübadilə proqramlarının həyata keçirilməsi istiqamətində zəruri addımlar atırlar. Bütün bunlar, həm də Rusiya və Azərbaycan arasında etnik submədəniyyətin məhdudiyyətlər çərçivəsini aradan qaldıran körpünün salınmasında Leyla Əliyevanın əvəzsiz xidmətləridir."

RAGT öz coğrafiyasını ildən-ilə genişləndirir. İndi azərbaycanlı gənclər klubları təkcə Moskvada və Sankt-Peterburqda deyil, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və ümumilikdə, 60-dan artıq regionda da mövcuddur. Təşkilat gənclərin həyatının bütün istiqamətlərini - idman, səhiyyə, təhsil və mədəniyyəti əhatə etməyə çalışır. Qurumun mühüm layihələrindən biri və ən başlıca aksiyası "Xocalıya ədalət!" beynəlxalq kampaniyasıdır. Kampaniyanın məqsədi Xocalı faciəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır.

Qurum təhsilə və Azərbaycanın təbliğinə böyük diqqət yetirir. RAGT Rusiya gənclərini, o cümlədən, bu ölkədə yaşayan Azərbaycan gənclərini Azərbaycanın tarixi, mədəniyyəti və ədəbiyyatı ilə getdikcə daha yaxından tanış edir. Rusiyada təhsil alan və təhsildə xüsusi fərqlənən tələbələrə RAGT-ın "Əlaçı mükafatı" təqdim olunur.

Sevindirici haldır ki, Rusiyanın bir çox regionlarında Azərbaycan bazar günü məktəbləri açılır. Kitabxanalarda Azərbaycan otaqları təşkil edilir. Burada təkcə Azərbaycan gənclərinin nümayəndələrinə deyil, həm də maraqlanan bütün şəxslərə Azərbaycan haqqında informasiya təqdim olunur. Bununla yanaşı, RAGT sağlamlığa və sağlam həyat tərzinə böyük diqqət ayırır. Artıq bir neçə ildir keçirilən "Qanın milləti yoxdur" aksiyası çərçivəsində qurumun könüllüləri ehtiyacı olan bütün şəxslərə təmənnasız qan verirlər. Bu aksiya təkcə Moskvanı deyil, Rusiya Federasiyasının regionlarını da əhatə edir. RAGT, həmçinin, "Sağlamlığına əmin ol - xəstəliyə "YOX" de" aksiyası da təşkil edir. Bu aksiya çərçivəsində bütün arzu edənlər pulsuz müayinə olunurlar.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 21 fevral

## Neslihanla Kadir 1 milyonluq müqaviləyə imza atdılar



Keçən il eynək markalarının biri üçün fotokamera önünə keçən aktrisa Neslihan Atagül və aktyor əri Kadir Doğulu bu il də həmin reklam firması ilə işləməyə qərar veriblər. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, onları həmin eynəkləri yenidən reklam etdikləri üçün satışı artıb. İddialara görə məşhur cütlük sözügedən reklam şirkəti ilə imzaladıqları müqavilə üçün 1 milyon 500 min TL maddi gəlir əldə edəcəklər. Qeyd edək ki, Neslihan Atagül 2018-ci ildə "Kadirlə yenidən eyni layihədə yer almaq istəyirəm" sözlərini demişdi.

## Misirdə baş prokurora sui-qəsd təşkil edən 9 nəfər edam olunub



2015-ci ildə Misirin baş prokuroru Hişam Bərəkət terrorçuların sui-qəsdi nəticəsində həlak olmuşdu. AZƏRTAC Misir mətbuatına istinadla xəbər verir ki, fevralın 20-də həmin sui-qəsdin təşkilatçıları olmuş 9 nəfər barəsində çıxarılmış edam hökmü icra edilib.

Beynəlxalq hüquq təşkilatlarının, o cümlədən "Amnesty International"ın edam hökmünü ömürlük həbs cəzası ilə əvəz etmək barədə Misir hökumətinə müraciəti nəticəsiz qalıb. Ötən ilin noyabrında ilkin məhkəmənin qətnaməsinə yenidən baxan Ali Apellyasiya Məhkəməsi Qahirədə avtomobilinə bombalı hücum nəticəsində həlak olmuş baş prokurorun qatilləri barədə ölüm hökmünü qüvvədə saxlayıb. Edam olunanlar arasında "Müsəlman qardaşları" hərəkatının liderlərindən biri Məhəmməd Tahanın oğlu Vəndam da var. Xatırladaq ki, Misirdə digər iki cinayət faktı - hakimin oğlunun və polis zabitinin qətlə yetirilməsi üzrə ittiham edilən daha 6 nəfərin barəsində ölüm hökmü çıxarılıb və fevral ayında onlar edam olunub.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin MQT-1805 B qrup tələbəsi Məmmədova Ayşə Rəfail qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya müəllimliyi ixtisası üzrə (qiyabi şöbə) V kurs tələbəsi Şərbətova Aynur Telman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət İqtisad Universiteti Distant, qiyabi, əyani və əlavə təhsil mərkəzi, "Metodologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi" fakültəsinin tələbəsi Məmmədli Nurayın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

ADPU-nun Filologiya fakültəsinin, Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisasının III kurs tələbəsi Hüseynzadə Vəfa Elşən qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

**"Nar" abunəçilərinin nəzərinə!**

01.03.2019-cu il tarixindən etibarən, "Nar"ın korporativ tariflərində dəyişikliklər olacaq. Daha ətraflı məlumatı www.nar.az saytından əldə edə bilərsiz.

**BAŞSAĞLIĞI**

Şirvan Əbilov "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**Pakizə Paşayevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

## Paytaxtımız bədii gimnastika üzrə Avropa çempionatına ev sahibliyi edəcək



Dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malik Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib. Beynəlxalq aləmin ayrılmaz hissəsinə çevrilən Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi bu nüfuzun və bu inamın göstəricisidir. Qafqazın qüdrətli ölkəsi, dünyada söz sahibi olan Azərbaycan hər il onlarca beynəlxalq konfranslara, sərgilərə, festivallara, eləcə də, irimiqyaslı tədbirlərə ev sahibliyi edir.

Bakıda keçirilən "Avroviziya" mahnı yarışması, IV İslam Həmrəyliyi Oyunları, NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının 23-cü illik sessiyası, Bakı Beynəlxalq Humanitar forumları, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu və s. Azərbaycanın güclü, qüdrətli, nüfuzlu - dünya güclərinin hesablaşdığı bir dövlət olduğunu göstərir. Bu tədbirlər siyasi və iqtisadi sabitliyə, maliyyə imkanlarına və yüksək səviyyəli təhlükəsizliyə malik olan ölkəmizdə keçirilir.

Onlarla belə tədbirlər Azərbaycanda müxtəlif millətlərin sülh və qardaşlıq şəraitində yaşadığı məkanda keçirilir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti dövlətimizi çoxmillətli, çoxkonfessiyalı diyar olaraq, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, bütün sahələrdə olduğu kimi, idman sahəsində də həyata keçirilən tədbirlər ölkəmizin idman ölkəsi kimi tanınmasına səbəb olub. Bu nailiyyət idman və bədən tərbiyəsinə göstərilən diqqət və qayğıdır. Ötən 15 ildə onillikdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı bir sıra sərəncam və fərmanları da respublikamızda idman sahəsində uğurlara yol açıb. Azərbaycanın iştirak etdiyi beynəlxalq idman yarışlarında, Olimpiya Oyunlarında qazandığı nailiyyələri dövlətin idmana, gənclərə qayğısından irəli gəlir. Keçən qısa zamanda, əldə olunan nailiyyətlərə nəzər salsaq, görərik ki, Azərbaycan idmançıları çoxlu sayda qızıl, gümüş və bürünc medallara sahib olublar. Son illər beynəlxalq yarışların keçirilməsi üçün Bakının namizədliyinin irəli sürülməsi və s. dünya idman və Olimpiya aləminin Azərbaycana olan marağının daha da artdığını şahidi oluruq. Azərbaycan həm idman üzrə uğurları ilə, həm də dünya və Avropa səviyyəli çempionat və tədbirləri, o cümlədən, ölkəmizdə nüfuzlu beynəlxalq yarışları təşkil etməklə dünyanın idman mərkəzlərindən birinə çevrilib.

Azərbaycanda keçirilən Avropa və Dünya çempionatları silsilə xarakteri daşıyır. Müxtəlif beynəlxalq turnirlərin - bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırmışdır. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurdu. Avropa Oyunlarına ev sahibliyi etmək missiyasının Bakıya həvalə edilməsinə böyük etimad, təbii ki, Azərbaycana olan inamdan doğmuşdur. Dünyanın 50 ölkəsinin 6 min idmançısının iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medalı qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi idmana olan qayğının məntiqi idi.

İdman yarışlarına yüksək səviyyədə ev sahibliyi etməsinin nəticəsidir ki, Azərbaycanın paytaxtı Bakının adı ən populyar idman şəhərləri sırasına daxil olub. Belə ki, Bakının adı Paris və Rio-de-Janeyronun adı ilə bir yerdə çəkilir. Artıq Azərbaycanda daha bir dünya yarışı bir neçə ildir ki, keçirilir. 1950-ci ildən etibarən, hər il keçirilən "Formula-1" yarışlarına Azərbaycan üç dəfə ev sahibliyi edib. Dünyanın ən elit yarışlarından olan "Formula 1"-in qonaqlarını qəbul edən paytaxt Bakı mötəbər yarışın möhtəşəmliyi üçün hər cür tədbirləri reallaşdırıb. Artıq Azərbaycanda yenidən aprelin 26-28-də "Formula 1" Azərbaycan Qran-Prisi start götürəcək. Bakı bütün iştirakçı və qonaqları, hər zaman olduğu kimi, aprelin növbəti tədbirdə də ev sahibi olaraq, yüksək səviyyədə qarşılayacaq. Bu əminliyi yaradan Azərbaycanın idman ölkəsi olaraq tanınması, daxili sabitliyin və əmin-amanlığın hökm sürməsi və xalqımızın qonaqpərvərliyi kimi əsas amillərdir.

Paytaxtımız Bakı şəhərinin 2025-ci ildə "Ekspo" Ümumdünya Sərgisinə ev sahibliyi etmək üçün namizədliyinin irəli sürülməsi də elə ölkəmizin beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən, sülhün, əmin-amanlığın, sabitliyin hökm sürdüyü bir məkan olmasından qaynaqlanır. Universal sərgi, dialoq, qarşılıqlı fəaliyyət üçün yeni bir güclü platforma kimi səciyyələndirilir. Mayın 16-da Milli Gimnastika Arenasında 4-cü dəfə (2007-ci, 2009-cu, 2014-cü, 2019-cu il) paytaxtımızda təşkil olunan bədii gimnastika üzrə Avropa çempionatına start veriləcək. Azərbaycanda son illər keçirilən beynəlxalq tədbirlər ölkəmiz haqqında formalaşan təəssüratları dəyişir, respublikamızın imicinə müsbət təsir göstərir. Bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik və əmin-amanlıq məkanıdır. Respublikamızda hökm sürən və ardıcıl səciyyə daşıyan sabitliyin əsasında duran başlıca faktor isə, hakimiyyətin həyata keçirdiyi siyasi kursun ümummilli maraq və mənafeyə tam cavab verməsidir. Bütün bunlar isə Azərbaycanı yüksək sürətlə inkişaf edən ölkəyə çevirməklə yanaşı, mövcud ictimai-siyasi sabitliyin əsaslarının daha da möhkəmlənməsini şərtləndirən əhəmiyyətli faktor qismində çıxış edir.

***Zümrüd BAYRAMOVA***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**